Həşim Kəlbiyev
Elnur Kəlbizadə

# Ərəb müəllifləri Talış haqqında

**Azərbaycanın Talış dağları, bu Talış diyarı Azərbaycan xalqının böyük insanlarını, böyük şəxsiyyətlərini yetişdirmişdir. Siz burada – Lənkəranda, bu Talış dağlarının ətəyində Azərbaycan elmini, mədəniyyətini, təhsilini inkişaf etdirən dəyərli insanlar yetişdirmisiniz. Biz bunlarla fəxr edirik, bütün Azərbaycan xalqı da bu dəyərli insanlarla fəxr edir.**

**Heydər Əliyev**

– 9596 –
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-2007

63.3(5Aze)4+63.5(5Aze)
K 51

# Ərəb müəllifləri Talış haqqında

*Elmi redaktorlar:* *Qəzənfər Rəcəbli*
*Tarix elmləri namizədi, dosent*

*Əliağa Baxşıyev*
*Tarix elmləri namizədi, dosent*

*Rəyçilər:* *Emil Kərimov*
*Tarix elmləri namizədi*

*Qəzənfər Rəcəbli*
*Tarix elmləri namizədi, dosent*

*Rakif İbadov*
*Tarix elmləri namizədi*

**Ərəb müəllifləri Talış haqqında. Kəlbiyev Həşim Adil oğlu, Kəlbizadə Elnur Həşim oğlu. Bakı, «MBM» MMC nəşriyyatı, 2007, 108 səh.**

***«Ərəb müəllifləri Talış haqqında» adlı bu kitab «IX əsr müəlliflərinin Talış haqqında qeydlərinin təhlili», «X əsr müəllifləri Talış haqqında», «Talış sözünün mənşəyi yaranması və mənası haqqında», «Bəlləbur Bəzzdir» adı altında dörd bölmədən ibarətdir.***

***Əsər orta əsrlər Azərbaycan tarixi, etnologiya, arxeologiya, diyarşünaslıq, toponimika və eyni zamanda Talış xalqının etnogenezi ilə maraqlananlar üçnü nəzərdə tutulmuşdur.***

ISBN 978-9952-29-020-2

**©Həşim Adil oğlu Kəlbiyev**
**Elnur Həşim oğlu Kəlbizadə 2007**

**Haşım və Elnur Kəlbiyevlərin «Ərəb müəllifləri Talış haqqında» adlı monoqrafiyasına**

**RƏY**

Azərbaycanın orta əsrlər tarixini və etnoqrafiyasını öyrənmək üçün ərəb qaynaqlarının əhəmiyyətini qeyd etməyə ehtiyac yoxdur. Lakin həmin qaynaqlarda Azərbaycanın ayrı-ayrı bölgələri haqqında o cümlədən, Lənkəran bölgəsi haqqında materiallar tədqiqatçıların diqqətindən kənarda qalmış, xüsusi tədqiqat obyektləri olmamışdır. Ona görə də IX-X əsrlərdə ərəb qaynaqlarında Talış mahalı haqqında olan məlumatın araşdırılması elmi baxımdan çox maraqlı və aktualdır.

Bu baxımdan gənc tədqiqatçılar Kəlbiyevlərin Lənkəran bölgəsinin orta əsrlər tarixini və bəzi etnoqrafik məsələləri öyrənmək üçün ərəb qaynaqlarını araşdırmaları təqdirə layiqdir. Müəlliflər IX-X əsrlər ərəb müəlliflərinin əsərlərini araşdıraraq Lənkəran bölgəsinə aid məlumatı aşkara çıxarmış və təhlil etmişlər.

Kitabda Babəkin başçılığı altında Azərbaycan xalqının azadlıq müharibəsinə aid ərəb qaynaqlarının Talış bölgəsi ilə bağlı maraqlı məlumatlardan bəhs olunur və təhlil edilir. Müəlliflərin Bəz (Bəzd) qalası haqqındakı mülahizələri daha çox diqqəti cəlb edir və elmi araşdırmalar üçün maraqlıdır.

Kitabda müəlliflərin «talış» sözünün mənşəyi və etimologiyası haqqında fikirləri də elmi baxımdan maraqlıdır və elmi diskussiyaya ehtiyacı vardır.

Kitaba əlavə edilmiş xəritələrin də elmi araşdırmalar üçün əhəmiyyəti vardır. Kitabın bəzi fikirləri mübahisəli olsa da, onun çap olunmasının elmi əhəmiyyəti vardır. Ona görə də nəşr olunması məqsədəuyğundur.

**Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun «Müasir dövr etnoqrafiyası» şöbəsinin müdiri:** **tarix elmlər namizədi Emil Kərimov**

TƏSDİQ EDİRƏM
Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi katibi

# Giriş

Orta əsrlər tarixi rəngarəng hadisələrlə zəngin olan uzun bir dövrdür. Bu dövrdə bəşər cəmiyyətinin həyatında maddi və mənəvi mədəniyyətin xeyli inkişafı nəzərə çarpır. Ümumilikdə, bu dövr V əsrdən başlamış XVII əsrin ortalarına qədər davam etmişdir. "Medi um aveum"un (orta əsrlərin) ən maraqlı dövrü isə erkən orta əsrlərin sonu, inkişaf etmiş orta əsrlər dövrünün əvvəli – IX-XII əsrləri əhatə edir. Bu dövrdə vətənimiz Azərbaycanın tarixi də çoxlu hadisələrlə zəngin olmuşdur. Belə ki, VII yüzilliyin əvvəllərində Vətənimiz şimaldan gələn xəzərlərin (türklərin), həmin əsrin ortalarına yaxın isə cənubdan gələn ərəblərin hücumlarına məruz qalmışdır. Azərbaycanın taleyində həlledici dəyişikliklərə səbəb olan ərəb və xəzər hücumları nəticəsində Albaniyanın dövlət müstəqilliyinə, Adurbadaqanın isə hətta daxili müstəqilliyinə də son qoyulmuşdur. Albaniya və Adurbadaqan torpaqları geniş ərazili Ərəb imperiyasının tərkibinə qatılmışdır. IX əsrdə isə Ərəb ağalığına qarşı vuruşan Xürrəmilər hərəkatı bütün Azərbaycanı bürüdü və bir növ Azərbaycanın böyük bir hissəsində "Xürrəmilər hakimiyyəti" yarandı. X əsrin əvvəlləri Xilafətin ucqarlarındakı hakim və canişinlərin separatizminin güclənməsi, mərkəzi





hakimiyyətdən yarımasılı və ya müstəqil dövlət qurumlarının yaranması ilə əlamətdardır[1]. Bu dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Talış vilayətinin tarixi də Vətənimizin tarixi ilə birbaşa bağlı olmuşdur. Qeyd edildiyi kimi, VII əsrdə Ərəbistan yarmadasında Ərəb Xilafəti yarandıqdan sonra ərəblər geniş işğallar yoluna qədəm qoydular. Bu zaman Şərqin bir çox digər dövlətləri kimi Azərbaycan və Azərbaycanın digər vilayətləri kimi Taylasan (Talışan) da ərəblərin hücumlarına məruz qalmışdır. Tarixçi əl-Bəlazurinin verdiyi məlumata görə Cənubi Azərbaycan əhalisi artıq xəlifə Əli ibn Əbu Talibin xəlifəliyi dövründə (656-661) islamı qəbul etmiş, "Quran" oxuyurdu[2]. Qeyd etmək lazımdır ki, Əmirəlmöminin Əli ibn Əbu Talib Xilafətin şimal torpaqlarında islamın yayılmasına zahiri xəlifəliyi dövründə xüsusi diqqət yetirmişdir . Bunun səbəbini isə müasir dövrümüzün İranlı islamşünası Mehdi Pişvayi belə izah edir :

**"Yeni İslam hökümətinin əsas düşmənlərindən biri Roma imperiyası (Bizans imperiyası nəzərdə tutulur – E.K.) olmuşdur . Roma daima İslamı şimal tərəfdən hədələyirdi . Peyğəmbər (səlləllahu əleyhi və alih) ömrünün son anlarınadək Roma imperiyasının təhlükəsindən qafil olmamışdı ."[3]**

Müasir İranın görkəmli dinşünası Seyyid Rza Nüseyninəsəb "Şübhələrə cavablar" kitabında

---

[1] Azərbaycan tarixi, 7 clddə II cildi, B. , 1998 , s. 8.
[2] Yenə orada : s. 187 .
[3] M. Pişvayi. Məsum imamların həyatı, Tehran, 2005. s. 32.

Peyğəmbər (səlləllahu əleyhi və alih)-in həmin bu nigarançılığından belə bəhs edir:

**"Bu təhlükəli üçbucağın bir tilini Roma imperatorluğu təşkil edirdi. Bu böyük qüdrət Ərəbistan yarmadasının şimalında yerləşirdi və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) bu barədə daim nigarançılıq hissi keçirir, ömrünün axır vaxtlarına qədər Roma barəsində fikirləşirdi."[4]**

Buna əsasən qeyd etmək olar ki, bu zaman Cənubi Azərbaycanın vilayətləri, həmçinin, Gilan, Deyləm, Təbəristan kimi vilayətlərlə yanaşı Taylasan əhalisi də islamı qəbul etmişdi. Lakin sonralar bura Xürrəmilərin əsas mərkəzinə çevrildiyindən bu ərazi ərəblərin nəzarətindən çıxmış, burada islama qarşı deyil ərəblərin və Abbasi xəlifələrinin hakimiyyətinə qarşı mübarizə güclənmişdi. Çünki yerli əhali, Bəlazurinin də qeyd etdiyi kimi, islamı Əlinin dövründə qəbul etdiyindən özünü "Əli tərəfdarı", yəni "Şii Əli" hesab edirdilər. İslamın böyük təriqətlərindən biri olan şiəlik indinin özündə də əsasən İran İslam Respublikası və Azərbaycan Respublikasında yaşayan əhali arasında yayılmış başlıca təriqətdir. Sonuncu peyğəmbər – Məhəmməddən sonra Ərəb xilafətinə və İslam dininə başçılıq etmiş 4 xəlifəni tanıyan, lakin onlardan üçünün (Əbubəkr, Ömər və Osmanın) Əli ibn Əbu Talibin haqqını mənimsədiyini iddia edən, "Quran"ı və sünnəni qəbul edib, onun əsasında həyat tərzini müəyyənləşdirən müsəlmanlar şiə adlanır.[5] IX əsrdən

[4] S. R. Nüseyninəsəb, Şübhələrə cavablar, 2004.

[5] H. Məmmədli. Qafqazda İslam və Şeyxülislamlar, B. , 2005, s. 8.





başlayaraq ərəblər işğal etdikləri yerlərdə tamami ilə möhkəmlənmək üçün bu yerlərin öyrənilməsinə xüsusi diqqət yetirməyə başladılar.

Bəhs olunan dövrdən başlayaraq, Azərbaycan və Xilafətin tərkibinə daxil olan bir sıra digər ölkələr haqqında xəbərlər ərəb coğrafiyaşünas, tarixçi və alimlərinin əsərlərində öz əksini tapmışdır [6]. Bu cəhətdən IX-XI əsrlərdə yaşamış ərəb coğrafiyaşünas – səyyahlarının əsərlərində Azərbaycan və o cümlədən, talışların yaşadıqları torpaqlar haqqında qiymətli məlumatlar əks olunmuşdur. Bu coğrafiyaşünas–səyyahlar sırasında İbn-Xordadbeh, İbn əl-Fəqih, İbn Rusta, əl-Məsudi, Əbu Duləf, əl-Müqəddəsi kimi ərəb müəlliflərinin adını çəkmək olar.

Ümumiyyətlə, indiyə qədər Azərbaycan tarixinin bu dövrünə aid müxtəlif əsərlər, tədqiqat işləri, monoqrafiyalar yazılmışdır. Bu dövrə aid xarici tədqiqatçılar sırasında V.Girqas, V.V.Bartold ("Xəlifə II Ömər və onun şəxsiyyəti haqqında ziddiyyətli xəbərlər"), A.Y. Yakubovski, Y. A. Belyayev, Z. İ. Yampolski, Səid Nəfisi və neçə-neçə görkəmli tarixçilərin adını çəkmək olar.

Milli tarixşünaslığımızda bu dövrün ən görkəmli tədqiqatçıları sırasında akademik Ziya Bünyadovun ("Azərbaycan VII – IX əsrlərdə"), Nailə Vəlixanlının ("IX – XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında", "Ərəb Xilafəti və

[6] N.Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında, B., 1974, s. 4.

Azərbaycan"), Sara Aşurbəylinin, Fəridə Məmmədovanın, Yunis Nəsibovun və başqalarının adlarını çəkmək olar. Ancaq bir çox səbəblərdən Taylasan torpaqlarının o zamankı mövqeyinə, etnik tərkibinə, toponimikasına aid orta əsr tarixçilərinin məlumatlarına diqqət yetirilməmişdir. Bu səbəbdən erkən orta əsrlərin sonu, inkişaf etmiş orta əsrlərin əvvəllərinə aid Azərbaycan tarixində hələ açılmamış – "ağ səhifələr" çoxdur və onların daha geniş miqyasda tədqiqinə ehtiyac vardır. Çünki, hansı dövr olmasından asılı olmayaraq Vətənimizin keçmişini bilib, gələcəyini qurmaq üçün geniş tədqiqatların aparılması labüddür. Bir çox digər millətlərdən və xalqlardan fərqli olaraq Azərbaycan xalqları və ümumilikdə, Azərbaycan milləti tarixin hər bir dönəmində əməlləri ilə tarix yaratsalar da, tarixi yazmağa vaxt ayırmamışlar. Elə bu səbəbdəndir ki , Azərbaycan tarixinin zənginliyi ilə tarixşünaslığının zənginliyi eyni səviyyədə deyildir. Lakin, zaman keçdikcə Azərbaycan tarixinin təkcə orta əsrlər dövrünü deyil, bütün dövrlərin daha dərindən öyrənilməsi vacib bir zərurətə çevrilir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev məhz bu zərurəti öncədən görərək Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunda (2 fevral 1996-cı ildə) gənclər qarşısında çıxışında qeyd edirdi:

**"Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir,**





**dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.**[7]"

Yazılan əsərin də qarşısında duran əsas vəzifə Azərbaycanın ayrılmaz və əsas tərkib hissəsi olan Talış torpaqlarının ərəb işğalı dövründəki tarixini və tarixi coğrafiyasını IX-XI əsr ərəb coğrafiyaşünaslarının əsərləri əsasında tədqiq etməkdir. Nəzərə alsaq ki, bölgə tarixi baxımdan ən az tədqiq olunmuş ərazilər sırasındadır, mövzunun nə dərəcədə mühüm olduğu açıq-aşkar nəzərə çarpar.

[7] H. Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar , nitqlər , bəyanatlar , məktublar , müsahibələr.), B. , 1998, s. 318.

# I bölmə.

## IX əsr müəlliflərinin Talış haqqındakı qeydlərinin təhlili

IX əsrdə yaşayıb-yaratmış ərəb coğrafiyaşünas səyyahlarının əsərlərində əks olunmuş məlumatların təhlilinə başlamazdan əvvəl, Azərbaycan və ümumilikdə Xilafətdə o zaman mövcud siyasi, iqtisadi, ictimai, mədəni proseslərə nəzər salmaq yerinə düşərdi.

Bu zaman Xilafət taxtı Abbasilərin əlində idi. Abbasilərin Xilafət taxtına sahib olması islam dünyasında böyük dəyişikliklərə səbəb olmuşdu. 750-ci ildə Abbasilərin hakimiyyət başına keçməsindən sonra soy kökləri ilə Peyğəmbər səlavətullahın xanədanına bağlı olan Abbas və Əli oğulları arasında ziddiyyətlər kəskinləşdi və onlar bir-birilərinə düşmən oldular. O zamandan başlayaraq müsəlmanların rəhbər seçimində təfriqə daha da gücləndi. Rəhbər seçimində demək olar ki, müsəlmanlar 2 hissəyə ayrıldılar:

I. Abbasi hakimlərinin "əmir-əl-mömün"lüyünü həm zahirdə, həm də batində qəbul edənlər.

II. Abbasilərin "əmir-əl-mömün"lüyünü üzdə qəbul edib, batində peyğəmbərin nəslindən olanları (Əli oğullarını) rəhbər hesab edənlər.





IX əsrdə hakimiyyətdə olmuş Abbasi xəlifələrinin ən məhşurları bunlardır:

1. Harun ər-Rəşid (170 hicri-qəməri/786 miladi – 193 hicri-qəməri/809 miladi)
2. Məhəmməd Əmin (809-813 miladi)
3. Abdullah əl-Məmun (193 h.q./809 m. – 218 h.q./833 m.)
4. Əl-Mötəsim (218 h.q./833 m. – 227 h.q/842 m.)
5. Mötəsimin oğlu Vasiq (227 h.q/842 m. – 232 h.q/847 m.)
6. Vasiqin qardaşı Mütəvəkkil (232 h.q/847 m. – 248 h.q/861 m.)
7. Mütəvəkkilin oğlu Müntəsir (248 h.q/861-862)
8. Müntəsirin əmisi oğlu Müstəin (248 h.q/862 m. – 252 h.q./866 m.)
9. Əl Mötəzz Billah (252 h.q./866 m . – 255 h.q/869 m.)

Diqqətlə nəzər yetirdikdə görmək olur ki, iki Abbasi xəlifəsi Məhəmməd Əminin və Abdullah əl Məmunun hakimiyyətnin ilk illəri üst-üstə düşür. İş burasındadır ki, xəlifə Harun ər-Rəşid öldükdən sonra vəsiyyətinə görə, onun böyük arvadı Zibeydədən olan oğlu Əmin taxta çıxarılmışdı. Xilafətin şərq əyalətləri isə xəlifənin anası fars olan digər oğlu Mə'munun ixtiyarına verilmişdi. Elə ilk günlərdən qardaşlar arasında gərgin mübarizə gedirdi. Mübarizədə Mə'mun qələbə qazanır. Lakin Mə'munun apardığı fars təmayüllü siyasətə qarşı çıxan Əmin tərəfdarları da dinc oturmurlar. Nəhayət, Mə'mun ərəblərin maraqlarını nəzərə alaraq, siyasi kursunu dəyişib, 819-cu ildə paytaxtı Xorasandan

Bağdada keçirdikdən sonra çəkişmələrə son qoyulur və yalnız bu vaxtdan e'tibarən o, xilafətin daxili işləri ilə məşğul olmaq imkanı qazanır[8].

Yuxarıda qeyd edildiyi kimi, şiə müsəlmanları Abbasi xəlifələrinə deyil, Peyğəmbər nəslindən olan İmamlara beyyət edirdilər. IX əsrdə yaşamış şiə imamları aşağıdakılardır:

1. VII İmam - Museyi Kazım əleyhissəlam (128 h.q/746 m. – 183 h.q/800 miladi.)
2. VIII İmam – Rza əleyhissəlam (148 h.q./765 m. – 203 h.q./818 m.)
3. IX İmam – Məhəmməd Təqi əleyhissəlam (195 h.q/811 m. – 220 h.q/835 m.)
4. X İmam – Əliyyən Nəqi əleyhissəlam (212 h.q./828 m. – 254 h.q./868 m.)
5. XI İmam – Həsən Əskəri əleyhissəlam.

IX əsrin əvvəllərində Xilafətdə başlanan narazılıqlar əsrin ortalarına doğru kuliminasiya nöqtəsinə çatdı. Xürrəmilər hərəkatı isə Abbasilərə ciddi zərbə vurdu. IX əsrin sonlarında Xilafətdə separatizm meylləri gücləndi. Yerli hakim və canişinlərin hər biri mərkəzi hakimiyyətin üzləşdiyi çətinliklərdən istifadə edərək ayrılmağa, yarımmüstəqil və yaxud müstəqil dövlət qurumu yaratmağa can atırdı[9]. Mərkəzi hakimiyyətdən ayrılan ilk ölkələr sırasında Mərakeş, Əlcəzair, Tunis, Liviya, İranla yanaşı Azərbaycanın da adı çəkilir.

[8] az.wikipedia.org

[9] Azərbaycan tarixi, 7 cilddə II cildi, B. , 1998, s. 283 .





Bütün bu proseslərə baxmayaraq IX əsrin ortalarından başlamış – X əsrin ortalarına qədərki dövr "Müsəlman mədəniyyəti"nin tərəqqi dövrüdür. Ərəb Şərqinin mədəni və elmi mərkəzləri Bağdad, Kufə, Bəsrə, Dəməşq, Qahirə kimi şəhərlər idi. Müxtəlif ərazilərdə yeni-yeni təhsil ocaqları, kitabxanalar yaradılırdı. Bununla bağlı olaraq tarix elmləri doktoru Nailə xanım Vəlixanlı 7 cildlik "Azərbaycan tarixi"nin II cildində dövrün elm və fəlsəfi fikir tarixi bəhsində qeyd edir:

**"Artıq IX əsrdən başlayaraq Xilafətin ən böyük şəhərləri - Dəməşq, Bağdad, Hələb, Bəsrə, o cümlədən Azərbaycanın Ərdəbil, Marağa, Şamaxı və b. təhsil ocaqları, kitabxanaları, məsçidləri olan mədəni mərkəzlərə çevrildilər."**

Xilafətdə bu zaman digər elmlərlə yanaşı tarix və coğrafiya elmləri daha sürətlə inkişaf edirdi. Artıq qeyd edildiyi kimi, bu cəhətdən dövrün coğrafiyaşünas səyyahlarının əsərlərində talış torpaqlarının və ümumilikdə, Azərbaycanın tarixi və tarixi coğrafiyasına aid qiymətli məlumatlar vardır.

Dövrümüzə qədər əsəri gəlib çatan ilk ərəbdilli coğrafiyaşünas – səyyahı Əbul-Qasim Übeydullah ibn Abdullah ibn Xordadbehdir ( 205-ci hicri-qəməri/820 miladi ili – 300-cü hicri-qəməri/912-ci miladi ili). Adlı-sanlı İranlı ailəsində anadan olmuş İbn-Xordabeh Bağdadda təhsil almışdır. Onun atası xəlifə Abdullah əl-Məmunun hakimiyyəti illərində bir müddət Təbəristanın hakimi vəzifəsində çalışmışdır. O, özü də Xilafətdə bir çox yüksək vəzifələri tutmuşdur. Bir müddət atası kimi onun da Talış torpaqlarının bir

hissəsinin də daxil olduğu Gilan vilayəti ilə qonşu olan Təbəristan vilayətinin hakimi vəzifəsində çalışması müəllifin bu ərazi haqqında məlumatlarının daha dəqiq olacağı ehtimalını yaradır. Təbəristan ( طبرستان ) Xəzər dənizinin cənubunda yerləşən vilayətlərdən biri olmuşdur. Bu vilayət şərqdən Curcan, cənub-şərqdən Xorasan, cənubdan Rey, cənub-qərbdən Cibəl, qərbdən Gilan vilayəti ilə həmsərhəd idi. Orta əsr tarixçilərinə görə Təbəristanın əsas şəhəri Sariyə olmuşdur. Müəyyən edilmişdir ki, Təbəristan vilayətinin ərazisi İran İslam Respublikasının indiki Mazandaran vilayətinin ərazisini əhatə edirdi. Buraya onun həmçinin bir müddət əl-Cibəl vilayətində poçt rəisi[10] olmasını da əlavə etsək fikrimizi bir daha təsdiqləmiş olarıq. Cibəl vilayəti o zaman Xilafət üçün mühüm strateji əhəmiyyətə malık bir ərazi idi. Belə ki, bura Xilafət qoşunlarının həm "yəcuc torpaqları"na (Orta Asiyaya), həm də Azərbaycana, Bizansa, Xəzər ölkəsinə axınları üçün uzun müddət dayaq nöqtəsi olmuşdur. Vilayət şimaldan Gilan və Təbəristanla, şərqdən Rey vilayəti, cənubdan Xuzistan, qərbdən Azərbaycan və İraqi-Ərəb ilə həmsərhəd idi. Cibəlin əsas şəhəri bir zamanlar "Böyük Madi" dövlətinin paytaxtı olmuş Ekbatana – Həmədan şəhəri olmuşdur. Vilayət İran İslam Respublikasının indiki Tehran, Qəzvin, Qum,

[10] N.Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında, B. , 1974, s. 14.



Ərəb müəllifləri Talış haqqında

Həmədan, Zəncan ostanlarının torpaqlarını əhatə etmişdir[11].

İbn Xordadbeh "Yollar və məmləkətlər haqqında kitab"ında Taylasan torpaqlarına aid olan daha bir ərazinin Bacirəvanın da adını çəkmişdir. O, dövrə aid digər tarixçilər rəvayətlərə əsaslanıb yazmışlar ki, burada dirilik bulağı olmuşdur. Nailə Vəlixanlı Bacəravan şəhərini lokalizasiya edərkən bu şəhərin Şirvan yaxınlığındakı şəhərlərdən birinin adı olduğunu yazmışdır. Qeyd etmək lazımdır ki, əslində, Bacirəvan şəhəri Azərbaycan Respublikasının indiki Cəlilabad rayonu ərazisində yerləşmişdir. Hətta indinin özündə də Bacirəvan şəhərinin qalıqları və Bacirəvan kurqanları Cəlilabad rayonu ərazisində qalmaqdadır.[12] Azərbaycanın ən qədim tarixi ərazilərindən olan indiki Cəlilabad rayonu ərazisində ərəblərin gəlişinə qədər Bacirəvandan bir az aralıda daha başqa bir şəhər də olmuşdur. Təəssüflər olsun ki, bu şəhər haqqında ərəb mənbələrində məlumat demək olar ki, saxlanılmamışdır. Lakin digər mənbələrdən məlumdur ki, Həməşərə şəhəri eramızdan əvvəl II minillikdə formalaşmağa başlamış və mövcudluğunu ərəb işğalları dövrünə qədər saxlamışdır.

www.azwikapedia.org saytında Cəlilabad rayonunun tarixinə həsr olunmuş məqalədə yazılır:

**"Rayon ərazisində mövcud olmuş Həməşərə şəhəri eradan əvvəlki II minilliyə aiddir. Qədim mənbələrdə şəhərin 3 metr**

[11] Bax: xəritə Si ostan İran, Tehran, 2006.
[12] www.azwikapedia.org

**hündürlüyündə möhtəşəm qala ilə əhatə olunduğu göstərilmişdir. Ərəblərin Azərbaycana hücumundan sonra Həməşərə şəhəri dağılmış və sonrakı dövrlərdə Hasıllı şəhəri məhşurlaşmışdır."[13].**

Xordadbehin adını çəkdiyi Bacəravan sözünün mənasına gəldikdə isə bu söz yerli taylasanlıların dilində "ayrılan yolların qarşısı" və ya "ayrılan yolların başlanğıcı" mənasını vermişdir. Yəni, talış dilində "ba" ("və") – "qarşı" , "co" – "ayrı", "rovon" və ya "roon" – "yollar" mənasını verir. Diqqət yetirdiyimiz zaman da görə bilərik ki, həqiqətən də bu ərazi şimala gedən əsas ticarət yollarının üzərində yerləşir və yollar ayrıcıdır.

Həmçinin digər bir ərəb – coğrafiyaşünas səyyahı əl-Müqəddəsinin İbn Xordabeh haqqında fikirləri də maraq doğurur. Əl-Müqəddəsi göstərir ki, İbn Xordadbeh "xəlifənin vəziri idi və Əmirəlmömininin kitabxanasında saxlanılan elmi sərvətlərdən tam istifadə etmək hüququna malik idi."[14] Onun "Kitab əl-masalik və əl-mamalik" ("Yollar və məmləkətlər haqqında kitab") əsəri Azərbaycan, o cümlədən Talış bölgəsinin tarixi və tarixi-coğrafiyası üçün çox mühüm mənbədir. Əsər əsasən Xilafətdə yerləşən yollar və marşurutlar haqqındadır. Xordadbeh Azərbaycanı və o cümlədən, Taylasanı (Talışanı) "əl-Cərbi" adlandırdığı "şimal ölkələri" qrupuna daxil etmişdir. Bəzi tarixçilər İbn-Xordadbehin "əl-Cərbi şimal ölkəsidir və məmləkətin ¼ -ni əhatə edir." cümləsini təhlil edərkən "əl-

---

[13] Yenə orada.

[14] Bax: xəritə Si ostan İran, Tehran, 2006.





Cərbi"nin yalnız Xilafətin şimal vilayətlərinə aid olduğunu qeyd edirlər. Lakin apardığımız tədqiqatlar göstərir ki, bu fikir doğru deyildir. Çünki əl-Cərbi yalnız Xilafətin şimal vilayətləri mənasında işlənsəydi Xordadbeh bu dövrdə hələ Ərəb Xilafətinə tabe olmayan Xəzər, Alan, Səqalib, İber torpaqlarını "əl-Cərbinin tərkibində verməzdi. Deməli, İbn Xordadbeh "əl-Cərbi" yazarkən Xilafətə tabe olan deyil, o zaman ərəblərə məlum olan şimal torpaqlarından bəhs etmişdir.

İbn Xordadbeh "əl-Cərbi" ölkələrindən bəhs edərkən buraya Ərməniyyə, Azərbaycan, ər-Rey, Dumvənd, Təbəristan, ər-Ruyan, Amul, Sariyə, Şalus, əl-Lariz, əş-Şirriz, Tamis, Dehistan, əl- Kəlar, Cilan (Gilan), Bədəşvərcar torpaqlarını daxil edir. Tədqiqatlar göstərir ki, bu zaman bu torpaqların demək olar ki, hamısı Xilafətə tabe edilmişdi.

Ət-Taylasan torpaqlarının adını isə Xordadbeh "əl-Cərbi"yə daxil olan, lakin Ərəb Xilafətinə tabe olmayan, müstəqil torpaqlar sırasında çəkir. O, yazır:

**"Burada əl-Bəbr, ət-Taylasan, əl-Xəzər, əl-Lan (Nailə xanım Vəlixanlıya görə XII əsrə qədər Şimali Qafqazda yaşamış İranmənşəli alanların torpaqları.), əs-Səqalib (slavyanlar) , əl-Əbr (İber)."**

Tarixdən də məlum olduğu kimi, alan, slavyan, və iber torpaqları ərəb fütuhatına məruz qalmamış və bu xalqlar islamı qəbul etməmişlər. Xəzərlər isə daha çox iudaizmə meyilli olmuş və hətta Ərəb Xilafəti ilə uzun illər amansız müharibələr də aparmışlar. Bu müharibələr xəlifə I Validin hökümranlığı illərindən

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

(705 -715) başlamış və Harun ər-Rəşidin xəlifəliyi dövrünə qədər (786 - 809) davam etmişdir. Bəs tarixi Azərbaycan torpaqlarının mərkəzində yerləşən ət-Taylasanın adının azad olan torpaqlarla bir yerdə çəkilməsinin səbəbi nə idi?

Nailə Vəlixanlıya görə İbn Xordabeh adı çəkilən əsərini əl-Mötəsimin hakimiyyəti illərində (833-942) əl-Cibəl vilayətində poçt rəisi işlədiyi illərdə yazmışdı. 833-837-ci illər isə Xürrəmilər hərəkatının ən qızğın dövrünə təsadüf edir. Nəzərə alsaq ki, Taylasan torpaqları Babək Xürrəminin ən əsas istinadgahlarının yerləşdiyi ərazi olmuşdur, o zaman nə üçün Taylasan (Talışan) torpaqlarının adının müstəqil yaxud ərəblərə tabe olmayan ərazilər sırasında çəkildiyi məlum olar. Konkret deyilsə, Taylasan torpaqları bu zaman Xilafətə deyil , Babəkə tabe idi. Hətta Babəkilərin əsas mərkəzi Bəzzin Lənkəran və Ərdəbil arasında yerləşdiyini[15]görkəmli tarixçi Z.İ Yampolski də təsdiq edir. H.Kəlbiyevin "Bəlləbür Bəzzdir" əsərində də bunu sübut edən əsaslı faktlar göstərilmişdir[16]. Sonuncu fəsildə bu mövzuda təhlillər verildiyi üçün burada geniş təhlil verməyə lüzum yoxdur. Lakin zaman keçdikcə Taylsan torpaqlarının bir hissəsi Xürrəmilərin əlindən çıxmağa başlamışdı.

"Taylasan" sözünün özünə gəldikdə isə bu söz yalnız və yalnız "talış" sözünün cəm formasından başqa bir

[15]З.И.Ямполский. Восстание Бабека, Б. , 1941, с.28.

[16] H.Kəlbiyev. Bəlləbür Bəzzdir, Ekologiya, fəlsəfə, mədəniyyət elmi məqalələr məcmuəsi, 20-ci buraxılış, B. , 1999, s. 43.





şey deyildir. İlk məxsusi adı "sataquş" olan və hətta Bisutunda da həkk olunan bu xalqın adının "talış" şəklinə düşməsindən danışarkən müasir İran tədqiqatçısı, tatşünas və talışşünas, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri doktoru Əli Əbdoli yazır:

**"Talış xalqına məxsus adın ilk formasının sataquş olduğu, Haxəmənişi (Əhəməni) kitabələrində bu adın yazıya düşdüyü və sonra onun heç bir qaynaqda qeyd olunmadığı nəzərə alınarsa, onda Haxamənişilərdən sonrakı dövrlərdə sataquş adı taquş şəklinə düşməlidir və belə olan surətdə kadus adı taquş adının qeyri-şərtsiz yunan variantı olacaqdır. Taluş – talış adı isə taquş adının daha sonrakı dövrlərdə təşəkkül tapmış İran tələffüzüdür."**[17] .

Beləliklə, "taquş"u yunanlar "kadus" ifadə etdiyi kimi, ərəblər də "talış" sözünü "taylis", "taylas" şəklində ifadə etmişlər. Sözün sonuna artırılan "-an", "-on" şəkilçisi isə bir çox İrandilli xalqların dillərində olduğu kimi talışca da cəm şəkilçisidir[18].

İbn-Xordadbeh "Azərbaycan mahalının şəhər və rustaqları" haqqında olan hissədə dolayısı ilə Taylasan torpaqlarının siyasi tarixinə də toxunmuşdur. Tədqiqatlar göstərir ki, əsasən Xürrəmilər hərəkatı yatırıldıqdan sonra Taylasan torpaqları bölünərək ayrı-ayrı vilayət rustaqlarına tabe edildi. Bu vilayət rustaqları sırasında Ərdəbil və Bərzənd rustaqları mühüm yer tuturdu. Əsərində Xordadbeh Ərdəbil

[17] Ə. Əbdoli. Kadusların tarixi, Tehran, 2002, s. 23.

[18] Məlumat üçün bax: Ş. Ə. Sadıxzodə. Talış dilinin qrammatikası, Sankt-Peterburq , 2002 (Azərbaycan dilində)

canişininin Məhəmməd ibn ər-Rəvvad əl-Əzdi olduğunu göstərir. O, yazır:

**"əl-Marağa, əl-Məyanic, Ərdəbil, Varsan, Sisər, Bərzə, Saburxast, Təbriz (canişini) Məhəmməd İbn ər-Rəvvad əl-Əzdidir."**

Taylasan torpaqlarının qərb hissəsi, təqribən, indiki İran İslam Respublikasının Ərdəbil ostanının Ərşaq, Nəmin nahiyyələri[19] o zamandan başlayaraq Ərdəbil rustaqına tabe edilmişdir.

Məhəmməd ibn ər-Rəvvad əl-Əzdi X əsrdə Azərbaycanda öz dövlətlərini yaratmış Rəvvadilər sülaləsinə (983-1060) mənsub bir hakim olmuşdur. Əl-Yəqubi də xəbər verir ki, Təbrizdən Bəzzədək olan bütün torpaqlar Rəvvada verilmişdi. Babəkin məğlub edilməsindən sonra nəinki, Ərşaq və Nəmin, hətta Azərbaycan Respublikasının indiki Astara, Lerik, Lənkəran rayonları da Rəvvadilərin hakimiyyəti altında olmuşdur. Qardaşı əl-Vəcnədən sonra hakimiyyətə gəlmiş Məhəmməd bir müddət müstəqil şəkildə hakimiyyət sürmək üçün Xilafətə qarşı çıxmışdır. Bunula bağlı olaraq, 7 cildlik "Azərbaycan tarixi"nin II cildində göstərilir:

**"əl-Yəqubi verdiyi məlumatında Xürrəmilər hərəkatının təsiri ilə Xilafətdən təcrid olaraq nisbi müstəqillik əldə edə bilmiş hakimlər sırasında Məhəmməd ibn ər-Rəvvadın da adını çəkmişdir."[20]**

[19] Bax: xəritə Si ostan İran , Tehran, 2006.

[20] Azərbaycan tarixi, 7 cilddə II cildi, B. , 1998, s. 338.





Qeyd etmək olar ki, Məhəmməd və ümumilikdə, Rəvvadilər etnik mənsubiyyətcə Yəmənli əzd qəbiləsindən olmuşlar.

İbn Xordabeh əsərində Bərzənd rustaqının canişininin isə Əli ibn Murr olduğunu göstərir. Əli ibn Murrun hakimiyyəti digər Azərbaycan torpaqları ilə yanaşı Taylasanın şimal torpaqlarının bir hissəsini də əhatə etmişdir. Bərzənd rustaqı çox ehtimal ki, Azərbaycan Respublikasının indiki Yardımlı və Masallı rayonlarının əraziləri, həmçinin, İran İslam Respublikasının indiki Ərdəbil ostanının Germi nahiyyəsini əhatə etmişdir.

Orta əsrlərdə Azərbaycan və talışların yaşadığı torpaqlar haqqında əsərində məlumat verən digər bir ərəb coğrafiyaşünası IX əsrin sonu X əsrin əvvəllərində yaşamış Əhməd İbn əl-Fəqih əl-Həmədanidir. İranın Həmədan şəhərində anadan olan İbn əl-Fəqih 5 cildlik "Kitab əl-buldən" ("Ölkələr kitabı") kitabını 902-ci ildə yazmışdır. Əl-Həmədani Azərbaycan hüdudları, ərəb işğalı, Azərbaycanın şəhərləri və Xilafətə verdiyi xəracın miqdarı haqqında geniş məlumat vermişdir. Digər ərəb coğrafiyaşünas-səyyahları kimi onun da haqqında bəhs etdiyi Bərzənd, əl-Avdi kimi məntəqələri fikrimizcə talışların yaşadığı torpaqlarda axtarmaq daha düzgün olardı. Artıq Azərbaycan tarixşünaslığında da bu fikir qəbul edilmişdir ki, Bərzənd adlanan yaşayış məntəqəsi Talış torpaqlarının

qərbində yerləşmiş bir yaşayış məntəqəsi olmuşdur[21]. Bu cəhətdən Bərzəndin yerini Azərbaycan respublikasının indiki Lerik və Yardımlı rayonları və İran İslam Respublikasının Ərdəbil ostanının indiki Germi, Meşkinşəhr, Nəmin nahiyyələri ərazisində axtarmaq daha düzgün olardı. İbn əl-Fəqih Bərzənddən bəhs edərkən yazır:

**“Bərzənd kənd idi. Əl-Afşin Babəklə vuruşduğu günlərdə burada düşərgə salmış, möhkəmlətmiş və abad etdirmişdi.”**

Böyük ehtimalla bu ad - yəni, Bərzənd adı bu əraziyə Babəkilərin üsyanları dövründə və yaxud az sonra ərəblər və ya ərəb ağalığını qəbul etmiş farslar tərəfindən verilmişdir. Çox ehtimal ki, “Bərzənd” “kafirlərin qapısı” və ya “zındıqların yaşadığı torpaqların qapısı” mənasını verir . Yəni , bu söz fars dilində “بر” (**“bər”**)[22]–qapı və “ ق د cÀcي ز” (**“Zındıq”**) -zındıq, dinsiz, kafirlər sözlərinin birləşməsindən əmələ gəlmişdir. Sonralar isə bu söz dəyişilərək “Bərzənd” formasına düşmüşdü. Təsadüfi deyildir ki, Məhəmməd Üvfi “Cavame-əl–hekayət və ləvame-ər rəvayət” adlı əsərində yazır:

**“Mötəsim dövründə baş verən ən böyük hadisələrdən biri Babək hərəkatı idi. O, zındıq idi ...”[23]**

Lakin bu heç də o anlama gəlməməlidir ki, Xürrəmilər həqiqətən də islamı qəbul etməmiş və

---

[21] Azərbaycan tarixi xəritələri, (“Azərbaycan 9-cu əsrin ikinci yarısı – 10-cu əsrdə”xəritəsi .), B. , 1994.
[22] Bax: Ərəb və Fars sözləri lüğəti (B.T. Abdullayev, Ə.Ə. Orucov, Y.Z. Şirvaninin redakrəsi ilə), B. , 1985. s. 51.
[23] S. Nəfisi. Azərbaycan qəhrəmanı Babək Xürrəmdin, B. 1990, s. 6.





dinsiz, kafir olmuşlar. Qeyd etmək yerinə düşər ki, Xürrəmiləri ən qüdrətli lideri olmuş Babəkin adını bəzi orta əsr müəllifləri (Təbəri və digərləri) Həsən kimi göstərirlər. Saleh İldırım “Babək Xürrəmdin ya Bay Bək Şaman?” məqaləsində Babəkin islamçı olduğunu qəbul etməsə də, Məsudinin Babək haqqında maraqlı bir fikrini verir:

**“Məsudi iddia edir ki, Babək bir dəfə islamı qəbul edib və Həsən adını götürdü.......”[24]**

Müasir İran müəllifi Dr.Hüseyn Feyzullahi Vəhid də iddia edir ki, Babək şiədir və əsl adı da Həsəndir. Əslində, islam dininə mənsub olan Babək Xürrəminin bu adı Məhəmməd Peyğəmbərin nəvəsi, şiələrin ikinci imamı Həsən ibn Əlinin şərəfinədir. Lakin üsyan qaldırmış əhaliyə qara yaxmaq və Xilafət əsgərləri arasında onlara qarşı nifrət hissini gücləndirmək üçün bu böhtan məqsədyönlü şəkildə həyata keçirilirdi. “Kafirlərə” qarşı “cihada” gedən hər bir ərəb əsgəri isə həlak olacağı təqdirdə cənnətə gedəcəyinə inanırdı. Çünki, “kafir”, “dinsizlər”ə qarşı vuruşmağı müsəlmanların müqəddəs kitabı “Qurani-Kərim” də onların qarşısına vəzifə kimi qoyurdu. Müqəddəs kitabda yazılır :

**“Və qatilihum hətta latəkunə fitnətun və yəkunədinu lillahi fəinin təhəv fəlaudvanə illa ələz zalimin “**

**Yəni :**

---

[24] S. İldırım. Babək Xürrəmdin ya Bay Bək Şaman?, 2004, s. 11.

**"Kafirlərlə cihad edin ki, fitnə və fəsad yer üzündən gedib din Allaha məxsus olsun. Əgər fitnədən və döyüşdən əl çəksələr (onlarla ədalət edin ki) çünki, zülm zalımlardan başqasına rəva deyildir."[25]**

**Və yaxud :**

**"Və qatilufi səbilillahi vələmu ənnəllahə səmiun əlim."**

**Yəni :**

**"Allah yolunda cihad edin və bilin ki , Allah xalqın dediklərini və etdiklərini eşidən və biləndir."[26]**

Hətta İranın yəhudi əsilli tarixçisi Səid Nəfisi Xürrəmiləri Məzdəkilərin ideya varisləri kimi verməyə çalışsa da etiraf etmişdir ki, orta əsr mənbələrinin çoxunda Xürrəmilərin məsləki haqqında yazılanlar qərəz və böhtan xarakteri daşımışdır.[27] Əslində, Xürrəmilər hərəkatını dini hərakat kimi qiymətləndirmək fikrindən daşınmaq lazımdır. Ümumiyyətlə, Babəkin şiə məzhəbli müsəlman olmasına baxmayaraq bu hərəkat nə sırf şiə, nə atəşpərəst, nə xristian, nə sünni, nə zərdüşti, nə şaman hərəkatı olmamışdır. Babəki şamanist kimi vermək istəyən Saleh İldırım da "Babək Xürrəmidin ya Bay Bək şaman?" əsərinin sonunda etiraf edir ki:

[25] "Qurani-Kərim", Bəqərə surəsi, 193-cü ayə.
[26] "Qurani-Kərim", Bəqərə surəsi, 244-cü ayə.
[27] S. Nəfisi. Azərbayca qəhrəmanı Babək Xürrəmdin, B. , 1990, s. 8.





**"Babəkin üsyanı milli-azadlıq üsyanıdır. Abbasi xəlifələrinin islamdan çıxmış hərəkətlərinə, işğalçılıq siyasətinə qarşı yönəlmişdir."[28].**

Fehrest iddia edir ki, onlar heç bir dini rədd ya təhqir və təzyiq etmirdilər... Onların inancında bütün dinlər düzdür, yetər ki, yaxşı əməli dəyərləndirib və pis əməli cəzalandırsın...[29]. İranlı müəllif Zərrinkub da Xürrəmilər haqqında maraqlı bir məlumat vermişdir. O, yazır:

**"Müqəddəsi deyir: xorrəmilər məcbur olmasalar qan tökməzlər, başqaları ilə yumşaq davranırlar..."[30] .**

Həqiqət budur ki, Xürrəmilər hərəkatından bəhs edərkən Xürrəmilərin inancları ilə Babəkin inancını qarışdırmamaq lazımdır. Həsən ibn Abdullahın, yəni Babək adı ilə tanıdığımız şəxsin dini mənsubiyyətcə islamçı şiə olduğu şəksizdir. Xürrəmilərin içində isə müxtəlif dinli, müxtəlif təriqətli insanlar olmuşdur. Əgər, Babək Allahlıq iddiasına düşüb, İslam dininə qarşı vuruşsa idi, ərəb və müsəlman olan Əzrək Babəkin sərkərdəsi olmazdı. Əgər, Xürrəmilər vahid Allaha qarşı çıxırdılarsa, niyə xristian Bizans imperatoru Feofil Babəkə yardım edirdi?_Məlumdur ki, Babək ərəb ordusunun Azərbaycandan çıxarılmasına nail olmaq məqsədilə 834 - 836-cı illərdə Bizans imperatoru Feofillə Xilafətə qarşı ittifaq bağlayıb. Hətta, 837-ci ildə imperator ərəblərə qarşı qoşun da göndərmişdi. Bu halda sual oluna bilər ki, əgər Babək

[28] S. İldırım. Babək Xürrəmdin ya Bay Bək Şaman?, 2004, s. 20.
[29] Göstərilən əsər, s.11.
[30] Dr. Əbdülhüseyn Zərrinkub, "2 qərn sükut", s.. 213-214.

(Həsən ibn Abdullah) islamı qəbul etmiş və müsəlman olmuşdusa niyə "Qurani-Kərim"də müşrik kimi göstərilənləri (atəşpərəstləri və ola bilsin ki, bütpərəstləri) öz tərəfdarları kimi qəbul edirdi? Həqiqət odur ki, Babəkə tərəfdar çıxan "müşriklərin" çoxu zülm və əsarət üzündən Babəkə pənah gətirmişdi və Həsən ibn Abdullah (Babək) əslində "Qurani Kərim"in tələb etdiyi kimi onlarla davranırdı. Müsəlmanların digər dindən olanlar və dinsizlərlə necə davranmaları haqqında yazan Harun Yəhya yazıçılıq adı ilə məhşur olan Adnan Oktar[31] adlı türk yazarı "Quran"da əks olunmuş dinsizlərlə davranış qaydalarından danışarkən yazır:

**"Allah Kuran'da, Müslümanlara, müşrik insanlara (yani Allah'tan gelen vahye uymayan putperestlere) bile güvenlik sağlamalarını emreder: "Eğer müşriklerden biri, senden 'eman (güvenlik) isterse', ona eman ver; öyle ki Allah'ın sözünü dinlemiş olsun, sonra onu 'güvenlik içinde olacağı yere ulaştır..." (Tevbe Suresi, 6) Müşriklere göre Müslümanlara çok daha yakın bir inanç ve ahlaka sahip olan Kitap Ehline ise, daha da fazla saygı, hoşgörü ve yardımseverlik göstermek gerekmektedir."**

Yəni,

**"Allah Quranda Müsəlmanlara, müşrik insanların belə təhlükəsizliyini qorumağı əmr edər: "Əgər müşriklərdən biri səndən aman (güvənlik) istəyirsə, ona aman ver; belə ki, Allahın sözünü dinləmiş olsun, sonra onu "təhlükəsiz olacağı yerə çatdır..." (Tövbə surəsi,6) Müşriklərə nisbətən müsəlmanlara daha yaxın bir inanc və əxlaqa sahib olan**

[31] www.harunyahya.net





**Kitab Əhlinə isə daha çox hörmət , xoşüzlülük və kömək göstərmək lazımdır ."**[32]

İbn əl-Fəqih əsərinin digər bir yerində Azərbaycan hüdudlarından bəhs edərkən də Bərzəndin adını çəkir və onu məhz Azərbaycanın Deyləm və Gilan ölkələrinin yaxınlığında yerləşən şəhərlərindən biri kimi göstərir:

**"Azərbaycanın hüdudu Bərdədən Zəncanadəkdir. Şəhərlərindən: Bərkəri, Səlmas, Muğan, Xüvey, Varsan, əl-Beyləqan, əl-Marağa, Neriz, Təbriz; cənub–şərqdən Azərbaycanın ikinci sərhəddi əd-Deyləm, ət-Tarm və Cilan ölkələri ilədir. Buradakı şəhərlərdən Bərzə, Saburxast, əl-Xunəc, Məyanic, Mərənd, Xuvey, Gülsurə, Bərzənd – bura xarabalıq idi. Əl-Afşin buranı abadlaşdırdı və məskən etdi ...."**

Maraqlıdır ki, "Bərzənd", "Bərzand" sözünün qismən dəyişilmiş formasını Talış torpaqları indiyə qədər özündə saxlamışdır. Belə ki, tarixçi-etnoqraf Həşim Kəlbiyevin verdiyi məlumata görə, Azərbaycan Respublikasının Yardımlı rayonunun kəndlərindən biri indi də Bərcan adlanır və kəndin yaxınlığında çox ehtimal ki, orta əsrlərə aid yaşayış məskəninin qalıqları indi də qalmaqdadır. Burada müasir dövrümüzdə də talışların yaşadığı məlumdur. Bunu Azərbaycanın görkəmli etnoqrafı, talışlara aid olan sanballı və əhatəli etnoqrafik monoqrafiyanın müəllifi Qəmərşah Cavadov da özünün məhşur "Talışlar" monoqrafiyasında təsdiqləmişdir. Müəllif 1969-cu ilin iyun-iyul aylarında bu bölgəyə etnoqrafik səfərindən danışarkən yazır:

[32] Harun Yahya. "Kabala ve Masonluk", İstanbul , s. 16.

**“Səfərin hesabatından aydın olur ki, o, Astaranın Miki, Siyaku, Alaşa, Ərçivan, Şüvü, Pensər, Kakalos, Sekoşlu; Lənkəranın Seydəkəran, Rvo, Mollakənd, Söyüblü; Lerikin Cəngəmiran, Xəlfəküçə, Pərkəküçə, Qosmalyan, Göydərə, Bilnə, Soru, Barzavu; Masallının Hişkədərə, Ərkivan, Mahmudavar, Sərçivar; Yardımlının Perimbel, Bərcan və başqa kəndlərində olarkən əhalinin və o cümlədən talışların əkinçilik mədəniyyəti, habelə texnikası haqqında zəngin materiallar toplamış və bu materiallar əsasında yazdığı məqaləni sonralar elmi jurnalda çap etdirmişdi .”[33] .**

Yuxarıda da qeyd etdiyimiz kimi, Bərzəndlə yanaşı İbn əl-Fəqih əl Həmədaninin bəhs etdiyi əl-Avdini də Talış torpaqlarında axtarmaq lazımdır. İbn əl-Fəqih Bərzə mahalından məlumat verərkən yazır:

**“Bərzə mahalı əl-avdilərin (الاود) [yaşadığı yerdir] .”**

Nailə Vəlixanlı “əl-avdi” sözünü izah edərkən onu ərəb qəbilələrindən birinin adı olduğunu göstərir. Ancaq, əslində bu söz “əl-avdi” deyil, Alavdidir və bu sözün dəyişilmiş forması indiki Masallı rayonunun Alvadı kəndinin adında özünü əks etdirir.

Alvadı kəndi Masallı rayonundan şimali-qərb istiqamətində yerləşmişdir[34]. “Alvadi” sözünün mənasını araşdırarkən tarixçi Musarza Mirzəyev bu sözün müxtəlif mənalarında yozumunu verir. O göstərir ki, müxtəlif mənbələrdə sözün mənası “Əli övladları”, “Əlvəndi” şəklində verilmişdir. Sonradan müəllif belə bir nəticəyə gəlir ki :

[33] Q.Cavadov. Talışlar, B. , 2004, s. 72.
[34] Bax: N. Novruzov . Masallı , B. , 1990, s. 2, xəritə.





**“Alvadı sözünün mənşəyi və bu yaşayış məntəqəsinin yaranma tarixini ərəblərin rayonumuzun ərazisinə gəlişi ilə bağlasaq səhv etmərik.”**

**“... İlk növbədə qeyd edək ki, Alvadı və onun yerləşdiyi Muğan ərazisi Xürrəmilərin ərəblərə qarşı apardığı mübarizə meydanlarından biri olmuşdur.”[35]**

Lakin, o, “Alavadi” sözünün mənasını yerli talış dilində deyil, ərəb dilində mənalandırır və yazır ki, bu söz “əl-vadi” sözündəndir. Vadi isə ərəbcə çay yatağı mənasını verir.

Lakin, əslində bu söz yerli talış dilində iki sözün birləşməsindən yaranmışdır. Belə ki, talış dilində “alov” – od, atəş; “di” isə kənd, kənd yeri, yaşayış yeri deməkdir.[36] Bu da birbaşa olaraq, Xürrəmilər hərəkatında iştirak etmiş atəşpərəstlərlə bağlıdır.

Burada bir daha qeyd etmək yerinə düşər ki, Xürrəmilər hərəkatı özündə müxtəlif dinli, müxtəlif təriqətli, insanları birləşdirmişdi. Hərəkatın bütün üzvlərinin isə yalnız bir məqsədi vardı: zülümkar Abbasi hakimiyyətini devirmək.

Qeyd edək ki, Babək hərəkatının məğlub edilməsi ilə əlaqədar olaraq artıq əsərin yazıldığı zaman Taylasan torpaqları da ərəblər tərəfindən idarə olunurdu. Ehtimal ki, bu zamandan artıq Taylasan torpaqlarının bir hissəsi Deyləmə, bəzi hissələr Gilana, digər bir hissə isə Azərbaycan tabe edilmişdi. Babək hərakatından sonra Taylasan torpaqlarının belə şəkildə bölüşdürülməsi başa

[35] M. Mirzəyev. Mənim Masallım, B. , 1991, s. 27-28.
[36] Bax: Н. Мамедов. Талышско-русско-Азербайджанский словарь, Б. , 2006.

düşülən idi. Məqsəd Xürrəmilərinin yerlərdəki qalıqlarını pərən-pərən salmaq idi.

IX əsrin sonu X əsrin əvvəllərində yaşamış digər coğrafiyaşünas-səyyah isfahanlı Əbu Əli Əhməd ibn Ömər ibn Rustanın "Kitab əl-Alaq ən nəfisə" ("Nəfis daş-qaşlar kitabı") əsərində 5-ci iqlim ölkələrindən bəhs edərkən Taylasanın adını çəkməməsi onun Babək hərəkatı yatırıldıqdan sonra artıq Deyləm, Gilan və Azərbaycan inzibati vilayətləri arasında bölüşdürülməsi ilə izah edilə bilər. Araşdırmalar göstərir ki, İbn Rusta ərəbdilli coğrafiyaşünas-səyyahların sırasına daxil edilsə də, o milliyyətcə fars olmuşdur. O , "Kitab əl-Alaq ən-nəfisə" əsərini 290-cı hicri/903-cü miladi ilində tərtib etmişdir. Müəllif əsərində dünyanı yeddi iqlimə ayırmış, bu iqlimlərin hər birinin flora və faunası, möcüzəli yerləri barədə maraqlı məlumatlar vermişdir. Əsərində İranın təsvirinə geniş yer vermiş müəllifin Azərbaycan haqqında verdiyi məlumatlar az və qarışıqdır. O, Azərbaycanı və həmçinin, Taylasanı V iqlimə daxil etmişdir. Çünki, coğrafi cəhətdən də baxdıqda Taylasan torpaqları şimallı-cənublu Azərbaycanın Xəzərsahili mərkəz hissəsidir. İbn Rusta Kaspi (Xəzər) dənizindən bəhs edərkən əsərində dənizin 3 adını verir:

**"Təbəristan və ya Curcan dənizi ; buna həmçinin əl-Bab dənizi də deyilir."**

Bu adlar hamısı indiki Xəzər dənizinə aid edilsə də əslində dənizin ayrı-ayrı hissələrinə verilən adlar idi. "Əl-Bab" adı dənizin qərb sahilləri ilə indiki Abşeron yarımadasından başlamış Dərbənd (əl-Bab) şəhərinə





qədər uzanan hissəsinə şamil edilirdi. Abşeron yarmadasından cənuba doğru, indiki İran İslam Respublikasının Mazandaran ostanına qədərki hissə Təbəristan dənizi adlanırdı ki, Taylasan torpaqları da Təbəristan dənizinin sahilində yerləşirdi. Elburs dağları və indiki Qorqan çayından başlanmış, dənizin şərq sahilləri ilə şimala doğru indiki Qaraboğazqol körfəzinə qədər uzanan hissə Qorqan və ya Curcan dənizi adlanırdı[37].

Yuxarıda da qeyd etdiyimiz kimi , İbn Rusta V iqlim ölkələrindən bəhs etsə də Taylasan adını çəkməmişdir.

İbn Rusta yazır:

**".....Beşinci iqlim məşriqdə yəcuclar ölkəsindən başlanır, sonra şimala Xorasana doğru uzanır . Ticarət şəhərlərindən burada Navicət (Orta Asiya şəhərlərindən biri), İsficab, əş-Şaş , Turarbənd , Xuvarəzm , Azərbaycan və Ərməniyyə vilayətləri , Bərdə , Nəşavə ,Sisəcan , Arzan , Xilat vardır ."**

Buradan isə belə məlum olur ki, ya İbn Rusta V iqlimə aid etdiyi ölkələri yaxşı tanımamış və yaxud da o daha çox İran-fars torpaqlarını tərənnüm etdiyindən V iqlim şəhərlərinə geniş yer verməmişdir.



[37] Bax: «Атлас Мира», Москва, 1963 ,c. 40-41, 46-47.

# II bölmə

## X əsr ərəb müəllifləri Talış haqqında

IX əsrdən başlayaraq Abbasilərə qarşı baş verən xalq azadlıq hərəkatları xilafəti zəiflədirdi. Feodal münasibətlərinin möhkəmlənməsi ilə Xilafətin mərkəzdən uzaq olan ucqarlarında hakimlərin müstəqilliyi artır, ərəblərin yaratdığı əmirliklərdən fərqli olaraq müstəqil xırda feodal - əmirlikləri yaranırdı. Müstəqil əmirliklərə rəhbərlik edən şəxslər bir zamanlar buraya elə ərəb xəlifələri tərəfindən təyin olunmuş nəsillərin zaman keçdikcə yerliləşən nümayəndələri idilər. Azərbaycan tarixçisi Tofiq Mustafazadə bu prosesləri belə əks etdirir.

**"Onların əsasını qoyduqları feodal nəsilləri zaman keçdikcə özlərinin ərəb mənşəyini itirir , yerli xalqlarla qarışırdılar."[38].**

Bəhs olunan dövrdə şimallı-cənublu Azərbaycan ərazisində bəzi kiçik dağlıq ərazilər istisna olmaqla hər yerdə xalq islamı qəbul etmişdi.

**"Artıq X əsrdə Azərbaycanın demək olar bütün şəhərlərində came məsçidləri vardı, hətta X əsrin məhşur coğrafiyaşünas səyyahı əl-Müqəddəsi şəhəri kənddən**

[38] T. Mustafazadə. Ümumi tarix, II cild, B. , s. 65.





**fərqləndirən əsas cəhəti məhz hər hansı yaşayış yerində came məsçidinin olmasında görürdü."[39]**

Azərbaycan ərazisində IX-X yüzilliklərdə Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri mövcud olmuşdur. IX əsrin sonu – X əsrlər Azərbaycan tarixinə aid ilk fundamental əsərlərdən birinin müəllifi, tarix elmləri doktoru, professor Məmmədəli Şərifli bu dövlətlərin yaranma əhəmiyyətindən danışarkən yazırdı:

**"Altı yüz ilə qədər davam edən Sasani və Ərəb əsarətindən sonra yerli dövlətlərin – Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadidlər dövlətlərinin yaranması Azərbaycan dövlətçiliyinin dirçəlməsi baxımından böyük əhəmiyyətə malik idi ."**

Taylasan torpaqları Şəddadilər dövləti istisna olmaqla qısa müddətli olsa da adı çəkilən digər dörd dövlətin tərkibində olmuşdur. Lakin bu dövlətlərdən ikisinin – Cənubi Taylasan - Deyləm hakimləri içərisindən çıxmış Salarilər və Ərdəbil hakimləri olan Rəvvadilərin tarixi ilə Taylasan torpaqlarının tarixi daha çox bağlı olmuşdur. Məlum olduğu kimi, Azərbaycan torpaqlarını ilk dəfə vahid dövlətdə birləşdirən sülalə Sacilər olmuşlar. Mənşəcə Orta Asiyanın türk tayfalarının nəsillərindən olan Sacilər sülaləsinin banisi Əbu-s Sacın adı ərəb mənbələrində ilk dəfə olaraq Babəkin əsir alınıb Bərzəndə ("Kafirlər

[39] N.Vəlixanlı. Ərəb Xilafəti və Azərbaycan, B. , 1993, s. 72.

qapısına") – Afşinin iqamətgahına gətirilməsi ilə əlaqədar çəkilmişdir. Ehtimal etmək olar ki, Xürrəmilər hərəkatının və Məzyər üsyanının yatırılmasına görə Sacilərə mülk olaraq verilən torpaqlar sırasında Taylasan və Təbəristan torpaqlarının bir hissəsi də olmuşdur.

Böyük Sacilər dövlətinin yaradıcısı isə Əbu Sac oğlu Məhəmməd hesab olunur. O, xəlifə tərəfindən 889-cu miladi ilində Azərbaycanın hakimi təyin olunmuşdu. Məhəmməddən sonra hakimiyyətə gəlmiş Yusifin dövründə Sacilər dövlətinin ərazisi qərbdə Ani və Dvin şəhərlərindən başlamış şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbəndədək (Bab əl-Əbvab) olan torpaqları əhtə etmişdir. Ehtimal ki, bu dövrdə Taylasan torpaqları Sacilərin tam asılılığında idi.

**"Beləliklə, Sacilər daha zəif qonşuların mülklərini birləşdirərək güclü dövlət yaratmağa nail oldular."[40]**

Sacilər dövlətinin hakimiyyəti dövrü Taylasan torpaqlarının həyatında nisbətən durğunluq dövrü kimi xarakterizə oluna bilər. Çünki, Xürrəmilər hərəkatının yatırılmasından sonra burada çoxlu əhali qırılmış, şəhər və kəndlər xarabazara çevrilmişdi. Əhalinin sayının azalması təbii olaraq birbaşa məhsuldar qüvvələrin inkişafına ciddi zərbə vurdu.

[40] Azərbaycan tarixi. 7 cilddə II cildi, B. , 1998, s. 289.





Lakin, tezliklə Taylsan torpaqlarının cənub hissəsi, yəni, Deyləm yenidən tarix səhnəsində mərkəzlik rolunu üzərinə götürür . 938-ci ildə Deyləm hakiminin sərkərdəsi Ləşkəri ibn əl-Mərdi Sacilər üzərinə hücum edərək sonuncu Saci hökümdarı Deysəmə tabe yerlərin çoxunu tutub Ərdəbili mühasirəyə aldı. Lakin, bundan xəbər tutan Deysəm Ləşkərinin qoşunlarına arxadan zərbə vurmaqla Deyləm vilayətinin ordusunu darmadağın edir. Bundan sonrakı hadisələr isə "Azərbaycan tarixi"ndə belə əks olunur:

**"Əvvəlcə Muğana, dostu olan yerli hakimin yanına qaçan Ləşkəri , oradan yardım üçün Gilana gedir . Topladığı min nəfərlik dəstə ilə Deysəmin Araz çayının sol sahilində saldığı düşərgəsinə hücum edən Ləşkəri Sacilərin qoşununu əzə bildi . Reyə doğru geri çəkilən Deysəm şəhərin hakimi Vuşməgirlə ittifaqa girib, Ləşkərinin əleyhinə kürdlərdən və başqa tayfalardan qoşun topladı ."[41]**

Amma adı çəkilən kitabda Ləşkərinin muğanlılardan, Deysəmin isə kürdlərdən kömək istəməsinin səbəbi açıqlanmır. Məlum olduğu kimi, türk-Saci ordusunun məlumatlarını ələ keçirmək üçün İrandilli giləklər və taylasanlılardan deyil, bu zaman Muğanda məskunlaşmış türk tayfalarından istifadə etmək Ləşkəri üçün daha əlverişli idi . Eyni hərbi taktikanı Deyləmlilərə qarşı tətbiq edən Deysəm Saci isə dil cəhətcə giləklər və taylasanlılarla qohum olan kürdləri

[41] Yenə orada .

öz qoşununun belə demək mümkünsə, “kəşfiyyat sistemi”nə cəlb etmişdi. Nəhayətdə, Deyləm ordusunun rəhbəri Ləşkərinin sui-qəsdlə öldürülməsi də bunu sübut edir.

Lakin, bütün bunlara baxmayaraq Deyləm hakimi Salar Mərzban ibn Məhəmməd 941-ci ildə Sacilərin torpaqlarına hücum edir. Hakimiyyəti Deysəmdən alaraq, Sacilərin Taylasan torpaqlarındakı təqribən 40 illik ağalığına son qoyur. Qeyd edək ki, bu hadisədə Deysəm Sacinin keçmiş vəziri Əli ibn Cəfərin böyük rolu olmuşdu. Bu və digər daha bir səbəb “Azərbaycan tarixi”ndə belə şərh olunur:

**“941-981-ci illərdə Mərzban ibn Məhəmməd Sacilərin son nümayəndəsi Deysəmin hökümətində maaliyyə vəziri vəzifəsini daşıyan Əli ibn Cəfərin təhriki ilə Azərbaycana hücum edir. Döyüş zamanı Deysəmin bir çox döyüşçüləri, əsasən kürdlər və deyləmlilər Mərzbanın tərəfinə keçirlər.”**[42]

981-ci ilə qədər Azərbaycanın əsasən cənub torpaqlarını hakimiyyəti altında saxlayan Salarilərin hakimiyyəti həmin ildə Rəvvadilərin (979-1054) hakimiyyəti ilə əvəz olundu .

Azərbaycanın Xilafət zülmündən azad olması, müstəqil yeni dövlətlərin meydana gəlməsi iqtisadi inkişafın sürətlənməsinə səbəb oldu. O zaman üçün Orta Şərqin ən inkişaf etmiş ölkələrindən biri olan Azərbaycan haqqında X-XI əsrlərin ərəb

[42] Yenə orada .





coğrafiyaşünas-səyyahları da geniş məlumatlar vermişlər.

Azərbaycan haqqında geniş məlumat vermiş digər bir ərəb – coğrafiyaşünası X əsrdə yaşamış Əbu-əl-Həsən Əli ibn əl-Hüseyn ibn Əli əl-Məsudidir. O, ayrıca olaraq Taylasan və ya burada yerləşən şəhərlərin adını çəkməsə də, bütün Xəzərsahili bölgələr kimi bu ərazilərə də rusların basqınları haqqında çox mühüm informasiyalar verir. XIX əsrin holland ərəbşünası İ. X. Kramers əl-Məsudidən bəhs edərkən yazır ki, Məsudi öz dövrünün “ən orijinal coğrafi yazıçısıdır”[43]. X əsrin əvvəllərində Bağdadda anadan olmuş əl-Məsudi əslən ərəb olmuşdur. Ömrünün əksər hissəsini səyahətlərdə keçirmiş Məsudi 345-ci hicri/965-ci miladi ilində Qahirədə vəfat etmişdir. O, İran, Təbəristan, Gilan, Çin, Seylon, Cənubi Ərəbistan, Suriya və Misiri gəzib dolaşaraq müxtəlif əsərlər yazmışdır. Artıq əminliklə demək olar ki, Məsudinin bəhs etdiyi dövrdə Taylasan torpaqları Deyləm və Gilan vilayətlərinə tabe idi. Əl-Məsudi “Qızıl yuyulan yer və cavarihat mədənləri” əsərində yazır:

**“Bu çay (Volqa) böyük və bolsuludur. Rusların gəmiləri dənizə səpələndi və Cil (Gilan), Deyləm, Təbəristan, Curcan sahilindəki Abaskun, neft verən torpaq və Azərbaycan istiqamətində olan bütün yerlərə basqın etdilər .”**

[43] N.Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında, B. , 1974, s. 49.

Deməli, ruslar Xəzərsahili digər vilayətlərlə yanaşı, talışların yaşadığı Deyləm vilayətinə də basqın etmişlər. Məsudi yazır ki, ruslar burada da qan tökür, qadın və uşaqları müxtəli cür vəhşiliklərə məruz qoyur, mal-dövlətlərini çapıb, yaşayış məntəqələrini xaraba qoyub yandırmışlar.

Əsərinin digər bir yerində əl-Məsudi dəniz ətrafında yaşayan xalqların məşğuliyyətləri barədə maraqlı məlumat verərək yazır:

**"Bu dənizin ətrafında yaşayan xalqlar özlərini itirdilər; çünki keçmişdə onların üzərinə dənizdən basqın edən heç bir düşmən xatırlamırdılar. Dənizdə həmişə yalnız ticarət və balıqçı gəmiləri üzürdü."**

Əl-Məsudinin öz əsərində adını çəkdiyi əd-Deyləm vilayətindən bəhs edərkən qeyd etmək lazımdır ki, bu vilayət bu gün İran İslam Respublikasındakı talışların yaşadığı torpaqları əhatə edir. Araşdırmalar göstərir ki, Deyləm vilayəti Gilan, Qəzvin, Zəncan və Azərabycan vilayətləri ilə həmsərhəd idi[44]. Daha dəqiq desək Deyləm vilayəti indiki İran İslam Respublikasının Tavaleş, Əsalem, Rezvanşəhr, Masal, Fumən məntəqələrini əhatə edirdi[45].

Əl-Məsudi həmçinin Xürrəmilər hərəkatının baş verdiyi əl-Bəzzeynin yerləşdiyi coğrafi məkan haqqında

[44] Bax : Azərbaycan tarixi xəritələri ("Xürrəmilər hərəkatı" adlı xəritə.), B. , 1994.

[45] Bax: xəritə "Si ostan İran", Tehran, 2007.





da danışır. O, yuxarıda adı çəkilən əsərində Xəzər dənizinə tökülən çaylardan bəhs edərkən yazır:

**"Ər-Ras çayı Azərbaycanda Babək Xürrəminin vətəni əl-Bəzzeyn (ölkəsi) ilə Arran ölkəsinə mənsub olan Əbu-Musa dağı arasında axıb gedir ."**

Bu məlumat əl-Bəzzeynin talışların yaşadığı torpaqlar, konkret desək Talış dağlarında yerləşdiyini söyləməyə imkan verir. Orta əsr tarixçiləri "Arran ölkəsinə mənsub olan Əbu Musa dağı" yazdıqda Kiçik Qafqaz dağlarının şərq hissəsini, yəni, Qarabağ dağlarını nəzərdə tutmuşlar. Talış dağlarından isə şimal qərbə doğru hərəkət etdikdə Araz çayı Əbu Musa – Qarabağ dağları ilə bu ərazi arasında qalır. Buraya Yaqut əl-Həməvinin **"Bəzz Azərbaycanla Arran arasında olan bir vilayətdir ."**[46] fikrini də əlavə etsək, fikrimizin nə dərəcədə əsaslı olduğu açıq-aşkar nəzərə çarpır. Əl-Məsudi əsərində indiki Cənubi Talış (İran İslam Respublikası) ərazisindən Gilana doğru axan Səfidrud çayı (talış dilinin cənub ləhcəsində "sefid" – "ağ", "rud" – "çay") haqqında da məlumat verir və hətta bu zaman Deyləm şahlığın siyasi tarixinə də toxunur . Məsudi yazır:

**"Sefidrud çayı Deyləm torpağından, Deyləm şahlarından olan Savar oğlu Salamın qəsri yaxınlığından axır. Sonra bu çay Deyləmdən Cil ölkəsinə axır. Burada deyləm torpağından Şahən-rud (talış dilində "Şahon-ru" –"Şahların çayı"**

[46] Z.Bünyadov. Azərabycan VII-IX əsrlərdə, B. , 1989, s. 230.

**mənasını verir.) adlı başqa (bir) çay Sefidrud çayına tökülür."**

Daha sonra Məsudi yazır ki, bu çayların sahillərində əcəmlərin çoxlu məskəni var. Azərbaycanın görkəmli tarixçisi Nailə Vəlixanlı "IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında" əsərində "əcəmlər" sözünü farslar kimi izah etmişdir. İlk baxışdan nəzərə alsaq ki, orta əsrlərdə "əcəm" anlayışı adı altında farslar nəzərdə tutulmuşdur bu fikrin doğruluğuna inanmaq olar. Lakin nəzərə alsaq ki, indinin özündə də bu ərazidə farslar çox cüzi miqdardadır, onda söylənilən fikir şübhəli görünür. Əslində Məsudi dilləri farsların dili ilə eyni qrupa daxil olan talışları və giləkləri farslarla qarışıq salmış və onları "əcəm" adlandırmışdı. Müəllif dil yaxınlığını oxşarlıq və eynilik kimi qəbul etmişdir. Hətta XIX əsrdə talışların tədqiqi ilə məşğul olmuş P.F.Riss də digər İran dillərindən daha çox talış dilinin fars dili ilə oxşarlığını qeyd etmişdir:

**«Талышинское наръчие принадлежитъ къ семье иранскихъ языковъ. Она ближе всего подходитъ къ персидскому языку ...»**[47]

Yəni:

**"Talış dili İran dilləri qrupuna aiddir. O daha cox fars dilinə yaxındır."**

---

[47] П.Ф.Рисс. О Талышинцахъ ихъ образъ жизни и языкъ, Записки Кафкязского отдела Императорского РГО, вып. III, 1855, с. 7.





Yerusəlimli Müqəddəsi də əsərində Azərbaycanda yaşayan əhalidən bəhs edərkən talış dili ilə fars dilini səhv salmışdı. Elə buna görə də o, buradakı əhalinin fars dilində Xorasanlılar kimi, yəni, qismən fərqli danışdığını qeyd etmişdi[48]. Əslində isə bu əhali fars dilində deyil talış dilində danışırdı.

X yüzilliyin ərəbdilli coğrafi ədəbiyyatının tanınmış müəlliflərindən biri də İranın Fars vilayətindəki İstəxr şəhərində doğulmuş əl-İstəxridir. Mavərünnəhr, İran, Ərəbistan, Suriya və Misirə səyahət etmiş əl-İstəxri "Kitab məsalik əl-məmalik" əsərini yazmışdır.

Əl-İstəxri Deyləm torpaqlarının Azərbaycanın şərq sərhəddində yerləşdiyi haqqında məlumat verir. O yazır:

**"Azərbaycan, Arran və Ərməniyyəni bir xəritədə yerləşdirib, vahid iqlim etdik. Şərqdən buranı Cibəl, Deyləm, Xəzər dənizinin qərb [hissəsi], qərbdən Ərmən və Lan sərhədləri, Cəzirə sərhəddinin bir hissəsi......"**[49]

Bundan başqa əl-İstəxri bu iqlimin çaylarından bəhs edərkən Azərbaycan və Deyləm torpaqlarından axan Səfid-rud çayından da bəhs edərək yazır:

**"Bu ölkədə gəmilərin hərəkəti üçün çaylar Kurr və Arrasdır . Ərdəbil və Zəncan arasındakı Səfidrud çayına gəldikdə, bu gəmilərin hərəkəti üçün kiçikdir ."**[50]

---

[48] N.Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyyaşünas-səyyahları Azərbaycan haqqında, B. , 1974, səh.134.

[49] "Azərbaycan tarixi üzrə qaynaqlar", B. , 1989, s.111 .

[50] Yenə orada .

X əsrin Talış haqqında bəhs edən məhşur ərəb coğrafiyaşünaslarından biri də Əbu Duləf Misar İbn əl-Mühəlhil əl-Xərraci əl-Yənbuidir. Mənşəcə ərəb olan Əbu Duləf[51] Azərbaycan, İran, Ərməniyyə, Hindistan, Çin və bir çox başqa ölkələrə səyahət etmişdir. Dəniz sahili ilə Bakuyəni və digər Arran torpaqlarını gəzdikdən sonra Ərdəbilə yola düşmüş Əbu Duləf əl-Bəzzeyn vilayəti və burada olan isti bulaqlardan bəhs etmişdir.O, yazır:

**"...Sonra Ərdəbilə yola düşdüm. Mən əl-Vayzun, Qaban, Xaçin, ər-Rub, Həndan və əl-Bəzzeyn dağlarından keçdim...."**

Əbu Duləfin qeydlərindən də məlum olduğu kimi o Qarabağ (Əbu Musa) dağlarını gəzdikdən sonra Talış torpaqlarına əl-Bəzzeynə istiqamət götürmüşdü. Həm Əbu Musa dağlarının, həm də əl-Bəzzeyn dağlarının təbii xüsusiyyətlərinə diqqət yetirən Əbu Duləf bu ərazilər arasında ortaq cəhəti də tapa bilmişdi:

**"əl-Bəzzeyn, Ərdəbil və yuxarıda adları çəkilən dağlarda qoturluğu müalicə edən isti bulaqlar vardır."**

Məlumdur ki, Azərbaycan ərazisində isti bulaqlar əsasən Kiçik Qafqaz dağlarında və Talış dağlarında geniş yayılmışdır. Qotur təmizləyən isti bulaqlar Azərbaycan Respublikasının Lənkəran, Masallı, Astara rayonları ərazisində və İran İslam Respublikasını Ərdəbil ostanlığı ərazisində çoxdur. Məlumat üçün onu

[51] Yenə orada .





da deyək ki, Azərbaycanda olan mineral bulaqlar öz kimyəvi tərkibinə görə on bir tipə bölünür. Buraya hidrokarbonatlı, hidrokarbonatlı-xloridli, və b. kimyəvi tərkibli mineral bulaqlar daxildir[52].

Artıq qeyd etdiyimiz kimi Xürrəmilərlə bağlı aparılmış sonuncu tədqiqatlar göstərir ki, Səid Nəfisi və ona əsaslanan bir çox tarixçilərə görə Babək Xürrəmi islam dininə qarşı deyil, ərəb ağalığına qarşı mübarizə aparmışdır. Özünü əhli-beyt tərəfdarı hesab edən Babək zülümkar Abbasilərə qarşı döyüşürdü. Babəkin şiə məzhəbli və "əhli- beyt" aşiqi olduğuna hətta Əbu Duləf də işarə vurur:

**"Əz-Bəzzeyndə sahəsi 3 caribə bərabər bir yer vardır. Deyirlər ki , orada bir yer var ki, Allaha dua ilə müraciət edən hər kəs buraya ayaq basarsa niyyəti qəbul olunar. Elə orada Xürrəmilər adı ilə məhşur olan qırmızı geyinmiş adamlar bayraqlarını qaldırdılar . Babək burada çıxış etmişdi."**

Göründüyü kimi ilk öncə, əgər Xürrəmilər kafir olsa idilər "Allaha dua ilə müraciət edən" olmazdılar. Həmçinin burada Xürrəmilərdən indiki talışlara və ya Talış dağlarında yaşayan əhaliyə yadigar qalmış və yaxud ilk Xürrəmilərin Taylasan sakinləri olduğunu sübut edən bir etnoqrafik faktı da qeyd etmək yerinə düşərdi. Hələ indi də talışlar geyimlərində qırmızı rəngə daha çox üstünlük verirlər. Təbii olaraq, Xürrəmi

[52] Azərbaycan tarixi. 7 clddə I cildi, B. , 1998 , s.. 48.

Babək də Taylasan torpalarının övladı olduğu üçün qırmızı geyim və qırmızı rəng Xürrəmilərin rəmzinə çevrilmişdi. Elə məhz bu səbəbdəndir ki, Əbu Duləf onları "qırmızı geyinmiş adamlar" adlandırmışdı. Azərbaycanın tanınmış etnoqrafı Qəmərşah Cavadov "Talışlar" monoqrafiyasında talışların milli geyimləri və bəzəklərindən bəhs edərkən bu xalqda hətta qadınların indi də qırmızı rəngli arxalığa və geyimlərə üstünlük verdiklərini qeyd edir:

**"Verdiyimiz məlumatlar arxalığın müxtəlif formalarda, biçimlərdə tikildiyini göstərir. Bu isə bir tərəfdən onun tikildiyi parçadan, digər tərəfdən kim üçün tikilməsindən və nəhayət, cavan, qoca, yaşlı qadınlara məxsus olmasından asılı idi. Belə ki, qızlar, gəlinlər üçün bir qayda olaraq arxalıq qırmızı rəngli parçadan tikilərdi. Vaxtı ilə B.V.Miller tərəfindən toplanmış Talış mahnılarında tez-tez qırmızı rəngli arxalığın adı çəkildiyi də aydın olur."**[53]

Taylasan torpaqları haqqında dolayısı ilə məlumat verən X-XI əsrlərdə yaşamış ərəb coğrafiyaşünaslarından biri də Əl-Müqəddəsidir. Əl-Müqəddəsinin əsərləri öz genişliyi və öz əhatəliliyinə görə çox mühüm əhəmiyyət kəsb edir. Əl-Müqəddəsi bu zaman Xilafətdəki rustaq və şəhərlərin sayı haqqında məlumat vermişdir. O, Azərbaycanı təsvir edərkən şəhərlərin topoqrafiyası, salınma tarixi, əhalisi, dili, dini, mədəniyyəti, məişəti, adətləri haqqında məlumat

[53] Q.Cavadov. Göstərilən əsər, s. 234.





vermişdir[54]. Təsadüfi deyildir ki, İ.Y.Kraçkovskii əl-Müqəddəsinin X əsr ərəb coğrafiyaşünas – səyyahlarının "son böyük nümayəndəsi" adlandırmışdı[55].

Şəms əd-Din Əbu Abdullah Məhəmməd ibn Əhməd ibn Əbu Bəkr əl Bənna əş-Şami əl-Müqəddəsi 946 - 1000-ci illərdə yaşamışdır. Onun əsas əsəri "Əhsən ət-təqasim fi Mərifət əl əqalim" ("İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü")[56] adlanır. Məlumat üçün qeyd edək ki, əl-Müqəddəsinin bəhs etdiyi dövrdə Taylasan torpaqlarının əsas hissəsi Ərdəbil vilayətinin tərkibinə daxil edilmişdi. Müqəddəsi Ərdəbil vilayətinin şəhərlərindən bəhs edərkən bu sırada Bərzənd şəhərinin də adını çəkir. O, yazır:

**"Ərdəbilin (vilayətinin) şəhərləri: Rusbe, Təbriz, Cəbrəvan, Məyanic, Sərat, Varsan, Muqan, Mimməz, Bərzənd ."**

Daha sonra o yazır:

**".......Paytaxtı, bura həmçinin (bütün) iqlimin şəhəridir, Ərdəbil şəhəri. Buradakı dağın uzunluğu 140 fərsəxdir. Bu (yerlər) başdan-başa kənd və əkin sahələridir. Deyirlər ki, burada (kəndlərdə) 60 dildə danışırlar."**

Görkəmli tarixçimiz N. Vəlixanlı təsvir olunan 140 fərsəxlik uzunluqda olan dağdan danışarkən yazır ki, bu

[54] Ziya Bünyadov. Göstərilən əsər, s. 23.
[55] N.Vəlixanlı. Göstərilən əsər, s. 126.
[56] Yenə orada, s. 127.

Ərdəbil yaxınlığındakı Savalan dağıdır. Halbuki, əsərinin əvvəlində o, əl-Müqəddəsinin əsərlərində 4 fərsəxin 24 - 32 km, yəni, 1 fərsəxin 6 - 8 km-ə bərabər olduğunu göstərir. Savalan dağının isə bu qədər uzunluqda olmadığı aydındır. Təbiidir ki, bu dağlar indiki Talış dağları və onun davamı olan Ərdəbil nahiyyəsində yerləşən dağlıq ərazilər olduğunu söyləmək daha inandırıcı görünər.

Müqəddəsi öz dövründə Bərzəndin kiçik bir yaşayış məntəqəsinə çevrildiyini də yazır. Bu da başadüşüləndir. Belə ki, görünür Afşin Babəki məğlub etdikdən sonra buradan çıxıb getmiş, qalan əhalinin çoxu isə lənətlənmiş torpaqlarda qalmaq istəmədiyindən buraları tərk etmişdir.

Müqəddəsinin ən çox maraq doğuran məlumatlarından biri isə hələ də tariximiz üçün aydınlaşdırılmamış aşağıdakı fikridir:

**"Muğandan bir mərhələ aralı əl-Həsrə adlı qala var. Orada evlər, qəsrlər, coxlu qızıl, quş və heyvan şəkilləri vardır. Bir çox hökümdar buranı işğal etmək istəmiş, lakin oraya qalxa bilməmişdilər."**

Əslində Həsrə sözünün etimoloji mənasının aydınlaşdırmaqla bu toponimi lokalizasiya etmək mümkündür. Ehtimal etmək olar ki, Müqəddəsinin Həsrə kimi işlətdiyi ad "Asbro" sözünün ərəbləşmiş formasıdır. Qeyd edək ki, indiki Astara sözü "Asbro" sözündəndir. "Asb" – "at", "ro" – "yol" sözlərinin





birləşməsindən yaranan bu söz "At yolu" , "Karvan yolu" mənasını verir. Müqəddəsinin əlçatmaz adlandırdığı qala isə indiyə qədər mövcudluğunu saxlamış və indinin özündə də sözün həqiqi mənasında əlçatmaz olan Şindan qalası ola bilər.

* * *

Beləliklə, apardığımız tədqiqatlardan göründüyü kimi, tarixi Azərbaycan torpaqlarının Ərəb xilafətinin tərkibinə qatılmasından sonra yurdumuz Xilafətin ən əhəmiyyətli strateji nöqtələrindən birinə çevrilmiş və hətta Xilafətdə dövlət səviyyəsində bu ərazilərin hərtərəfli öyrənilməsinə ciddi diqqət yetirilmişdir. Onu da demək lazımdır ki, ərəb tədqiqatçılarının Azərbaycana gəlişi təkcə, Xilafətdən tam asılılıq dövrlərində deyil, sonralar da davam etmişdir.

Ərəblərin maraq göstərdiyi və hər zaman ciddi nəzarət altında saxlamağa çalışdıqları ərazilərdən biri də talışların yaşadığı torpaqlar, yəni, ərəb müəlliflərinin dili ilə desək Taylasan torpaqları olmuşdur.



# III bölmə

## Talış sözünün mənşəyi, yaranması və mənası haqqında

Elmi araşdırmalar və təhlillərdən də aydın olduğu kimi "döyüşkən kadusilər"in şanlı tarixi heç də antik dövrün bitməsi ilə başa çatmamış, demək olar ki, bütün orta əsrlər boyu bu xalqın tarixi daha da zənginləşmişdir. Hətta Taylasan torpaqlarının övladları tarix səhnəsində tarixin bu dönəmində də göstərdikləri misilsiz xidmətlərlə ərəb-müsəlman dünyasının diqqətini də öz üzərlərinə çəkə bilmişlər.

Tədqiqatın III bölümündə isə qısaca da olsa bu qəhrəman xalqın adının mənşəyi, yaranması və mənası ilə bağlı qeydlərimizi verməк yaxşı olardı. Düşünürük ki, hər bir etnosun adı onunla bərabər tarixin dərin qatlarından və sınaqlarından keçdiyi kimi, ola bilsin ki, onun tarixinin hər hansı bir mühüm əhəmiyyət kəsb edən nöqtəsi yeni tarixi mərhələnin əsasını qoysun.

Aparılan son araşdırmalar göstərir ki, modern dünyamızda talış adı ilə tanınan xalqa, etnosa şamil edilən və bizə qədər gəlib çatan ilk ad "sataquş"dur. Bu





haqda bəhs edərkən müasir İran talışşünası və tatşünası olan Əli Əbdoli yazır:

**"..., ikincisi, yəni sataquş nə yunan forması, nə də orta fars dilindəki deyilişi, nə də hara adının olduğu məlum olmayan bir İran adıdır ."[57]**

Bu fikir, yəni, "sataquş"un kadus və talış adlarının ilkin forması olması hələ tarixşünaslıqda tam olaraq əsaslandırılıb, sübut olunmamışdır. "Sataquşlar ölkəsi" və ya "Sataquşiya" haqqında məlumat verən ən mühüm mənbələrdən biri və demək olar kı, birincisi Böyük Daranın Şuşda tapılmış kitabəsidir. Bu kitabədə Parsiyaya xərac verən Mada, Xuvaca, Parsava, Harayeva, Baxtəriş, Xarəzmiş kimi vilayətlərlə yanaşı Sataquşun da adı çəkilir.

"Sataquş"dan fərqli olaraq yunan mənbələrində "kadus" adlandırılan xalqın talışların əcdadı olduğu şəksizdir. Kadusilər haqqında hələ 1875-ci ildə B. Dorn özünün "Kaspilər" monoqrafiyasında kadusilərin qədim dövrlərdən Gilan və Deyləmdə yaşaması fikrini irəli sürmüşdür.[58]

N. Adonç da "Ermənistan Yustinyan dövründə" əsərində kadusilər haqqında məlumat vermişdir. Bu barədə görkəmli tədqiqtçı Rauf Məlikov yazır:

---

[57] Ə. Əbdoli. Kadusların tarixi, Tehran, 2002.

[58] Р. Меликов. «Этническая картина Азербайджана в период Ахеменидского владычества. VI-IV вв. до н. е.», Б. , 2003, с. 142.

**« В своей работе «Армения в эпоху Юстиниана» он указывает, кадусии обитали по соседству с албанами и сакесинами и подчёркивает, что гелы и кадусии разные народы.»**
**(O, "Ermənistan Yustinyan dövründə" əsərində göstərir ki, kadusilər albanlarla və sakesinlərlə qonşuluqda məskunlaşmışdılar və vurğulayır ki, gellər və kadusilər ayrı-ayrı xalqlar idilər .")**[59].

Kadusilərin Xəzər dənizinin sahil rayonlarında, Elbrusun şimal dağlıq rayonlarında və Qızılüzən boyunca yaşamış olduqlarını yazan İ.M.Dyakonov isə nəinki, gelləri və kadusiləri qohum hesab etmiş, hətta daha da irəli gedərək onları kuti və kassitlərin varisləri adlandırmışdı [60].

Görkəmli Azərbaycan Midiyaşünası İqrar Əliyev də 1960-cı ildə çap etdirdiyi "Midiya tarixi"ndə kadusilər haqqında məlumat vermişdir. O, Polibinin, Ptolomeyin, Strabonun, Plininin bəhs etdiyi xalqlar içərisində matienlər, kaspilər, aynianlar, elamlılar, parslar, anariaklar, utilər, gellər, leqlər və başqaları ilə yanaşı kadusilərin də adının olduğunu qeyd edir [61].

Tarixçi Qiyasəddin Qeybullayev də kadusilərin müasir talışların əcdadları olduğunu etiraf etmiş və

[59] Yenə orada .
[60] И.М.Дьяконов. «История Мидии от древнейших времен до конча века до н. е.», Москва-Ленинград, 1956, с. 225.
[61] И.Алийев, «История Мидия», Б. , 1960, с. 138.





onların yayılma arealının Atropotenə aid olduğunu vurğulamışdır. O, yazır:

**"Atropotenada İrandilli etnoslar da yaşayırdı . Onların ən böyüyü talışların ulu əcdadları olan kaduslar idi"**[62].

İran tarixçiləri Həsən Pirniya, Seyyid Əhməd Kəsrəvi, Məhəmməd Cavad Məşkur Xəzər dənizinin cənub-qərbində yaşayan kadusiləri talışların əcdadı hesab edərək "kadus" sözünü müasir "taluş", "taliş" sözlərinin yunanlaşmış forması kimi təsdiqləyirlər. Seyyid Əhməd Kəsrəviyə görə "nə kadusilər oradan getmiş, nə talışlar başqa yerdən gəlmədilər ."

Digər İran tarixçilərindən fərqli olaraq milliyətcə İran yəhudilərindən olan Səid Nəfisi talışların türk irqindən olmasını ehtimal etmişdirsə də professor S.Onullahi Səid Nəfisinin bu mülahizəsinin səhv olduğunu sübut edərək yazır ki, "hələ islamiyyətdən xeyli qabaq kadusilər bu ərazidə yaşamış və talışların indi yaşadıqları ərazinin ən qədim yerli sakinlərindən olmuşlar."

Doğrudur, bu gün İranın və Azərbaycanın etno-xəritəsində çox mühüm yer tutan talış xalqının formalaşmasında digər xalqların da ola bilsin ki, rolu olmuşdur. Lakin, bu heç də o demək deyildir ki, "talışlar türkdilli talasların varisləridir". 1925-ci ildə Talışda olmuş, Talışların etnogenezində türklərin

[62] Q. Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən, B. , 1984, s. 222 .

rolundan bəhs etmiş professor B.V.Millerin fikri nisbətən daha həqiqətə uyğundur. Miller yazırdı ki, talış sözündə biz qədimdən burada yaşayan bir tayfanın adını görürük. Fars tarixi mənbələrində Talışda türk tayfalarının olduğu da qeyd edilir ki, onların da monqol ordularının tərkibində Orta Asiyadan gəlmələri və Talış əyalətində məskunlaşmaları güman edilir.[63]

Daha sonra Miller yazırdı ki, bu zaman gələn türk tayfalarının bir hissəsi İran Azərbaycanının başqa türk tayfaları ilə qaynayıb-qarışmış, digərləri isə talışların içində əriyərək talış dilində danışmağa başlamışlar. O, qeyd edir ki, "talışlaşmış türklər" kiçik fonetik "dil xüsusiyyətlərinə malik olmaqla, həm də Orta Asiyadan gətirdikləri sünnilik etiqadını saxlamışlar.[64]

Lakin, kadusilər və Kadusiya haqqında geniş və əhatəli tədqiqat müasir İran talışşünası və tatşünası, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının fəxri doktoru Əli Əbdoliyə məxsusdur.

O, "talış" sözünün "kadus"un yunanca dəyişikliyə uğramış forması olması fikrini 1990-cı ildə farsca çap etdirdiyi "Taleşha kistənd?"("Talışlar kimdirlər?") kitabında, həm də 2002-ci ildə Tehranda nəşr etdirdiyi "Kadusların tarixi" kitabında vermişdir .

[63] Q.Cavadov. Talışlar, B. , 2004, s. 29.
[64] Yenə orada, s. 30.





Ümumiyyətlə, talışların etnogenezi məsələsi ayrıca tədqiqat mövzusu olduğu üçün burada adı çəkilən məsələyə geniş şəkildə toxunulmayacaq. Buraya qədər "prototalışlar" və ya "ilkin talışlar" haqqında qısa məlumat verdik. Lakin, bu bəhsin əsas məqsədi isə birbaşa olaraq "Talış" etno-toponimi ilə bağlıdır. Ümumilikdə, bu termin və ya terminin ilkin variantı haqqında artıq məlum olduğu kimi yunan, ərəb, fars, türk, rus mənbələrində maraqlı məlumatlar var .

"Talış" sözünün mənası haqqında isə fikirlər yekdil deyildir. Bu haqda müxtəlif mülahizələr diqqəti cəlb edir. Assuriya hökmdarı II Sorqonun (e.ə.721-705) kitabələrində "Telusina" vilayətinin fəthi barəsində söhbət açılır. "Telusina"nın İranın şimalında mövcudluğunu nəzərə alsaq çox güman ki, bu kadusların yaşadığı qədim əyalət olmuşdur. "Telusina"nı "talış" və ya "toloş" sözünün assurlaşmış variantı hesab etsək, belə bir fərziyyə irəli sürə bilərik ki, Telusinada yaşayan kadusilər sonradan qonşuları tərəfindən öz adları ilə deyil, vilayətlərinin adı ilə "telus" adlandırılmağa başlamışlar ki, bu da Toloş və Talıs sözünün ilkin formalarındandır.

"Talış" adı haqqında başqa bir fikir belədir. Seyyid Əhməd Kəsrəvi qeyd edir ki, ərəblər Azərbaycana gələnə qədər "talış" sözünə heç bir mənbədə rast gəlinmir. Əsərin birinci fəslində qeyd etdiyimiz kimi "Taylasan" torpaqları haqqında ərəb mənbələrində ilk

məlumat verənlərdən biri məhşur coğrafiyaşünas-səyyah İbn-Xordabehdir.

"Cavahirnameyi-Lənkəran"ın müəllifi Səidəli Kazımbəy oğlu Boradigahi problem ətrafında düşünərək maraqlı mülahizələrini söyləmişdir. O,1869-cu ildə yazmış olduğu adıçəkilən əsərində "talış" sözünün qədim İran dillərində "Təyalis" sözündən yarandığını ehtimal edir. Müəllifin "Təyalis"in (Talış) mənası haqqında üç ehtimalı var. Səidəli Kazımbəyoğlunun bir ehtimalı aşağıdakı kimidir:

**"Birincisi - Təyaiisan sahibləri. Təyalisan başa və çiyinə salınan geyim adıdır. Bu yerdə çox vaxt yağış yağdığı üçün, yağışdan qorunmaq məqsədi ilə adi kisədən düzəldilmiş geyimdən istifadə olunurmuş. Bu adətə indi də rast gəlmək olur."**[65]

Apardığımız etnoqrafik müşahidələrdən bəlli olur ki, adi kisənin bir küncünü digər küncünün içərisinə daxil etməklə ucu şiş olan yağışdan qoruyucu baş və çiyin geyimi əldə etmək olur.

Bir məlumatı da qeyd edək ki, buna oxşar ifadə saklara da aiddir və məlumdur ki, e.ə VII əsrdə "şişpapaq saklar" Manna ərazisinə gəlmişlər. Ola bilsin ki, bu ad əvvəllər köçəri "şişpapaq saklar"ın talışların yaşadıqları bugünkü torpaqların ucqar şimalında

[65] Səidəli Kazımbəy oğlu. Cəvahirnameyi-Lənkəran, Lənkəran, 1988, (Makina çapı ilə Lənkəranlı MirSalam Babayev tərəfindən hazırlanmişdır.) s. 6.





Cəlilabad - Biləsuvar ərazisində məskunlaşması ilə onlara aid edilmiş, sonralar isə qonşular Kadusiya ölkəsində yaşayan bütün əhaliyə bu adı şamil etmişlər. "Sakala" sözünün talış dilində açması elə "başı papaqlı" deməkdir.

Bizim əsərin "X əsr müəllifləri Talış haqqında" olan bəhsində qeyd etdiyimiz kimi, Cəlilabad rayonunun ən qədim adlarından biri Həməşora olmuşdur. Bəzi tədqiqatçılara görə bu ad əslində "Haoma şirə" şəklində olmuşdur. Məlumdur ki, yunan tarixçisi Herodot öz "Tarix" əsərində saklardan bəhs edərək onları dörd qrupa ayırmış və onlardan bir qrupunu "haoma şirəsi hazırlayan sakalar" adlandırmışdır. Diqqət çəkən digər bir məqam həm kadusilərin, həm də sakaların Herodotun "Tarix" əsərində XI Satraplıqda yaşandıqlarının göstərilməsidir.

Digər bir antik yunan müəllifi Strabonun sakalar haqqında məlumatını təhlil edərkən Qiyasəddin Qeybullayev belə yazır :

**"Strabon (I əsr) Atropatena ərazisində Sakasena adlı əyalətin adını qeyd edir (Strabon XI,7,2). Bu ad saka etnonimindən və mənsubiyyət bildirən "sin" şəkilçisindən ibarətdir. Həmin Sakasena (əslində Sakaşin) Astara rayonunun ərazisində Sakaşon və Sakşon toponimlərində indiyədək qalmışdır. Buradan belə nəticəyə gəlmək olar ki,**

**Sakaşin talışların əcdadları olan kadusların ərazisində yerləşirdi."[66]**

Bu ehtimalı qəbul etsək onda sakaların talış xalqının etnogenezində müəyyən rolunun olduğunu qəbul etməliyik. Lakin onu da qeyd etmək olar ki, əgər sakları türkdilli tayfalar kimi qəbul etsək onların buraya gəlişini türkdillilərin talış torpaqlarına ilk axınlarından biri kimi dəyərləndirilməlidir. Yox, əksinə əksər müəlliflərin qəbul etdiyi kimi sakları İrandilli kimi qəbul etsək belə bu halda onların Talış torpaqlarında məskunlaşması başa düşüləndir. Çünki, tarixşünaslıqda artıq qəbul edildiyi kimi, müəyyən səbəblər üzündən yerlərini dəyişən tayfalar əksərən özlərinə yaxın (dil cəhətdən) və qohum olan tayfalarla yanaşı məskunlaşmağa üstünlük vermişlər.

Yenidən, əsas mövzuya qayıdıb demək istərdik ki, Səidəli Kazımbəy oğlu Boradigahinin irəli sürdüyü "təyalisan sahibləri" mülahizəsi də "talış" sözünün formalaşmasında müəyyən rol oynaya bilərdi.

Daha sonra Səidəli Kazımbəy oğlu yazır:

**"İkincisi: "Məcməül bəhreyn" kitabında talış sözü saf, təmiz və hər bir nöqsandan uzaq kimi qeyd edilir. Bu da ona görədir ki, bu yerin adamları doğru danışan, ürəyi təmiz, hər cür hiylə-piylədən uzaq adamlardır."[67]**

---

[66] Q.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən, B. , 1994, s. 157

[67] Səidəli Kazımbəy oğlu. Göstərilən əsər, s. 6.





Nəzərə alsaq ki, "talis" sözü ərəb dilində yuxarıda göstərilən mənanı verir və talış adının ilk forması "taylasan" ilk dəfə ərəb mənbələrində çəkilir, bu ehtimalın da müəyyən əsası vardır. Lakin, bu ad görünür nə Əməvilərin, nə də Abbasilərin dövründə deyil, onlardan daha əvvəl verilmişdir. Çünki, Abbasilər Xürrəmi hərəkatının sahibləri olmuş bu xalqı və öz düşmənlərini saf, təmiz adlandırmazdılar. Böyük ehtimal ki, bu ad talışlara şiələrin birinci imamı Həzrəti Əli ibn Əbu Talibin dövründə verilmişdir. Çünki, talışlar məhz Əlinin xilafəti dövründə islamı könüllülüklə qəbul etmişlər.

Bu fikri rus müəlliflərindən D.İlyin də qeyd edərək yazırdı ki, talışlar həqiqətən də təmiz əxlaqa, sakit həyat tərzinə malikdirlər. Sonra müəllif vurğulayır ki, onlar qarət və oğurluğu sevməzlər.

"Cavahirnameyi-Lənkəran"ın müəllifi həqiqətə uyğun hesab etməsə də "talış" sözüylə bağlı əsərində bir fikiri də verir:

**"Bəzilərinin fikrinə görə "talış" sözü "tülüş" sözündən əmələ gəlmişdir. "Tül" talış dilində "palçıq" mənasını verir. Tülüş, yəni palçıqlı yer deməkdir.**

**Bu fikrə istinad edənlər sübut etməyə çalışırlar ki, Talışda ilin çox vaxtı yağış yağdığı üçün palçıq çox olur. Ona görə də bu yer Tülüş adlanır. Əlbəttə, bu şərh həqiqətdən uzaqdır.[68]**

---

[68] Yenə orada.

Oxşar mülahizəyə yenə də rus müəllifi D.İlyində də rast gəlirik.
Bəzi tarixçilər hətta talış sözünün yunanca "dəniz" mənasını verən "thalassa" sözündən yaranma ehtimalını da irəli sürürlər. Onlar belə hesab edirlər ki, bu söz Kaspianada - indiki Xəzər dənizinin cənub sahillərində yaşayan kaspilərə yunanlar tərəfindən verilmiş addır. Çünki, thalassa sözü talış formasına düşəndən sonra "Kaspi" sözü xalq adı kimi aradan çıxmışdır. Lakin, talış sözünün "thalassa" yunan sözündə yaranması o qədər də inandırıcı görünmür.

Məlumat üçün qeyd etmək lazımdır ki, qədim erməni mənbələrinə görə kaspilər hələ son antik və erkən orta əsrlər dövründə Paytakaran zonasında yaşamışlar.[69] Kaspilər barədə məlumatlara həm qədim şərq mənbələrində, həm də antik müəlliflərdə rast gəlinir. Xəzər dənizinin ilkin adlarından olub, indiyə qədər mövcudiyyətini saxlayan "Kaspi dənizi" ifadəsinin də onların adından alındığı şübhəsizdir.

Nəhayət, "Talış" termininin etimologiyasını yekunlaşdırmaq məqsədi ilə ayrı-ayrı müəlliflərin mülahizələrini ümumi şəkildə 4 qrupa bölmək olar:

1. Talış adının "kadusi" (qədim etnonim) sözündən yaranması;

[69] Azərbaycan Tarixi. 7 cilddə I cildi, B. , 1998, s. 334.





2. Bu adın "Talis" (doğrucul, sadə, saf) sözündən olması;

3. Palçıqlı yerin sakinləri mənasını verən "Tülüş" sözündən olması;

4. Talış sözünün yaranmasını dəniz mənasını verən kaspilərə verilən ad kimi yunanca "thalassa" sözündən olması.

Fikrimizcə, birinci mülahizə talışların qədimliyi, qədim tayfaların varisləri olması, ikincisi onların milli xarakteri və psixologiyası, üçüncü və dördüncü mülahizələr isə xalqın yaşadığı coğrafi ərazinin relyefi və məşğuliyyəti baxımından inandırıcıdır.

# IV bölmə

## Bəlləbur Bəzzdir

Əvvəlki fəsillərdə inkişaf etmiş orta əsrlər dövründə və ümumilikdə, digər dövrlərdə talışların tarixinə aid mühüm məsələlərə nəzər yetirmişik. Bu məsələlər talışların tarixi üçün mühüm olduğu qədər həm də onların ana Vətəni olan Azərbaycanın tarixi üçün mühüm əhəmiyyət kəsb edir. Həm Şərq, həm də Azərbaycan tarixşünaslığında tədqiqatçıların diqqətini özünə cəlb edən, lakin indiyə qədər həllini tapmamış tarixi problemlərdən biri də Xürrəmilərin əsas mərkəzi və istinadgahı olan Bəzzin lokalizasiyası və yaxud yerinin müəyyən edilməsidir. Bizim apardığımız tədqiqatlar və təhlillər belə nəticəyə gəlməyə əsas verir ki, bu gün Azərbaycan Respublikasının Talış regionunda hələ də öz qalıqlarını və xarabalığını saxlayan və yerli əhali tərəfindən də "Babək qalası" adlandırılan Bəlləbur qalası – Bəzzdir. Hər halda məlumdur ki,əslində Bəzz adlanan qala və ya orta əsr qala şəhərciyi təkcə bir qaladan ibarət olmamışdır. Bildiyimiz kimi, Bəzz və ya Babək qalaları Azərbaycan





Respublikası və İran İslam Respublikasının digər ərazilərində də mövcuddur. Əslində bu gün tarixçilər tərəfindən tarixi toponim kimi işlədilən "Bəzz" sözü orta əsrlərdə heç də yer, məkan adı bildirməmişdir. Aşağıda da göstəriləcəkdir ki, "Bəzz" yaxud "Bardz" "hündür qala" mənasını verir. Bizim tədqiq etdiyimiz Bəlləbur Bəzzi isə apardığımız təhlillərdən məlum olur ki, Babək titullu görkəmli sərkərdə Həsən ibn Abdullahın sonuncu istinadgahı olan Bəzzdir.

Tədqiq etdiyimiz ilkin orta əsr qalasının xarabalıqları indiki Lənkəran şəhərinin 9 kilometr cənub-qərbində Bəlləbur kəndi ərazisində yerləşir[70]. Qala haqqında Səidəli Kazımbəyoğlu 1869-cu ildə qələmə aldığı məhşur "Cəvahirnameyi-Lənkəran"da belə yazır:

**"Lənkəran çayından ayrılan qolun kənarındakı dağın üstündə, həmin çayın yarım ağaclığında kərpicdən və daşdan tikilmiş uzun və qalın bir divar vardır... Bəlləbur qalası həmin divarın cənub küncündə yerləşmişdir."**

Adı çəkilən qala Azərbaycan Arxeologiya Komitəsi tərəfindən 1926-cı ildə qeydə alınmışdır. Qala haqqında məlumat "Komitə Xəbərləri" jurnalının II buraxılışında İ.Əzimbəyovun «Древности Ленкоранского края» məqaləsində əks olunmuşdur[71].

---

[70] Böyükağa Hüseynbalaoğlu, Mirhaşım Talışlı. "Lənkəran", B. , 1990, s. 19

[71] Yenə orada, s. 20.

Qalanın xarabalıqları Talış dağları silsiləsinin şərqində, dəniz səviyyəsindən 300-350 metr yüksəklikdə sonuncu dağda yerləşir. Qalanın ərazisi təqribən 1,5 – 2 hektara qədər sahəni əhatə edir. Qalanın cənub-şərq tərəfindən indi Lənkəran çayı adlanan Vazaru çayı axır ki, bu da Bəlləburun Bəzz olduğunu söyləməyə imkan verən tutarlı faktlardan biridir. Bəzz qalasının ətrafından axan məhz bu çay Xürrəmilərin Babəkdən əvvəlki rəhbəri Cavidanla Babəkin (yaxud Həsən ibn Abdullahın) tanışlığının əsasını qoymuşdur. Bir fakta diqqət yetirək. Görkəmli tarixçi alim Ziya Bünyadov Xürrəmilər hərəkatından bəhs edərkən yazır:

**"Bir dəfə Cavidan Zəncanda bir qədər mal-qara satıb öz yerinə, Bəzzə qayıdanda hava pis olduğuna görə təsadüfən Babəkin anasının evində qalır."**[72]

Məntiqi cəhətdən götürdükdə belə igid döyüşçülərin sadəcə yağış və yaxud qar üzündən yolda dayanması inandırıcı deyil. Əslində isə Cavidanın Bilalabadda (Biləbandda) gecələyib öz qalası Bəzzə enməməsinin pis hava ilə dolayısı ilə bağlı digər bir səbəbi var idi. Yağan şiddətli yağış Bəzzin ətəyi ilə axan çayın daşmasına və qala ilə xarici əlaqənin kəsilməsinə səbəb olmuşdu. Ola bilsin ki, Cavidan qalaya gedən sonuncu yol da rəqibi Xürrəmilərin digər qolunun rəhbəri Əbu

[72] Z. Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, B. , 1989, s. 226.





İmranın nəzarəti altında olduğundan döyüşçülərini və özünü təhlükəyə atmaq istəməmişdi.

Səid Nəfisi Babəkin qalası ilə bağlı mənbələrə müraciət edərkən bir yerdə yazır:

**"Ondan aşağıda böyük bir çay axır. Ağır qızdırması olanlar bu çayda çimsələr sağalarlar"**[73]

Çoxlu ərəb müəlliflərinin əsərlərindən sitatlar gətirən Səid Nəfisi sonda belə bir nəticəyə gəlir:

**"Beləliklə Bəzz nahiyyəsi, Bəzz şəhəri, Bəzz dağı və ya Bəzzeyn indiki Talış nahiyyəsinin yaxınlığında olan Muğan çölünün şərqində (Bu da coğrafi cəhətdən Talış dağlarına gəlib çıxır –E.K) və Xəzər dənizinin qərb sahillərində olmuşdur."**[74]

İstər Vazaru çayı tərəfdən, istərsə də digər tərəflərdən qalanın yerləşdiyi dağa qalxmaq mümkün deyildir. Bəlləbur qalasının yolu qalanın qərb tərəfindəki Ordugah dağındandır. Ordugah dağının üstü təqribən 1000-1500 əsgərin yerləşə biləcəyi meydandan ibarətdir. Bu meydanın qarşısında 20-25 metr hündürlükdə təqribən 20-30 nəfərin yerləşə biləcəyi meydança vardır. Meydan və meydançadan qalaya yol qalanın yerləşdiyi dağı meydan dağından ayıran dərədən keçir. Qala ərazisinin təqribən 1,5 – 2 hektar olmasına baxmayaraq, zirvə hissəsi 0,5 hektara qədərdir. Adı çəkilən ərazidə indiyə qədər arxeoloji

[73] Səid Nəfisi. Azərbayca qəhrəmanı Babək Xürrəmdin, B. , 1990, s. 128.
[74] Yenə orada, s. 30.

tədqiqatlar aparılmasa da, böyük ehtimalla söyləmək olar ki, Bəlləbur qalası təkcə bir qaladan ibarət olmamışdır və orta əsrlərdə qala – şəhəri kimi fəaliyyət göstərmişdir. Əgər arxeolji tədqiqatlar bu fikri təsdiq edərsə, onda demək olar ki, 0,5 hektarlıq mərkəzi sahə Bəlləburdəki Bəzz qala şəhərinin narınqala hissəsi olmuşdur. Çox ehtimal ki, qalanın 1,5 hektarlıq hissəsi qala, qalan sahəsi isə şəhərin şəhəristan hissəsi olmuşdur. Fikrimizi görkəmli arxeoloq alim Rəşid Göyüşovdan gətirdiyimiz aşağıdakı sitatla əsaslandıra bilərik:

**"Şəhərlərin narınqalası (orta əsr şəhərləri nəzərdə tutulur – E.K), ümumiyyətlə, şəhər ərazisinin ən yaxşı yerində tikilir və bir qayda olaraq onun ətrafında ayrıca olaraq qala divarı çəkilirdi."**[75]

Qala ərazisinin qırmızı kərpicli divar səddi ilə əhatə olunduğu aşkar görünür. Qala divarlarının qalıqları indinin özündə də bəzi yerlərdə aydın nəzərə çarpır. Hal-hazırda qala ərazisi palıd və dəmirağacı meşəsi ilə örtülmüş, əksər yeri keçilməzdir. Qalanın ətəyindəki Bəlləbür kəndinin adı da məhz ərazinin bu cəhətini əks etdirir. Musarza Mirzəyev "Talış toponimlərinin qısa izahlı lüğəti"ndə bu toponimin mənasını belə izah edir:

**"Bəlləbur- "Bəlləbır" sözündən yaranıb. Bəllə palıd, "bır" tikanlıq deməkdir."**[76]

---

[75] R. Göyüşov. Azərbaycan arxeologiyası, B. , 1986, s.124.
[76] M. Mirzəyev. Talış toponimlərinin qısa izahlı lüğəti, B. , 1993,





Ehtimal ki, əsrlər boyu bir tərəfdən qala divarlarının uçulması, digər tərəfdən xəzəlin, çır-çırpının tökülməsi nəticəsində qalanın yerüstü hissəsi qismən batmışdır. Qalanın hansı formada tikilməsini tam tədqiq etmək üçün mütləq qala ərazisinin torpaq qatı müəyyən qədər təmizlənməlidir.

Azərbaycanın görkəmli arxeoloqu, mərhum İdial Nərimanov qala ərazisi ilə tanış olduqda buraya girişin daha çətin olduğunu, Talışdakı yüksək dağ qalaları olan Buzeyir və Şindan qalalarına nisbətən Talış silsiləsinin ətəyində olan bu qalanın da əzəmətli qala olduğunu söyləmişdir.

Görkəmli tarixçi-alim Tarix Dostiyev Lənkəran Dövlət Universitetində qaladan gətirilmiş kərpic və əhəng məhlulu ilə tanış olduqdan sonra tikinti materialının ilkin orta əsrlərə aid olduğunu söyləmişdir. Kərpiclərin daha çox gil tərkibli olması söyləməyə imkan verir ki, kərpiclər digər yerlərdən gətirilmə deyil. Çox ehtimal ki, kərpiclər qala ətrafındakı gilli torpaqlardan kəsilmişdir. Tikinti kərpiclərinin ölçüləri 22x22x6 santimetr həcmindədir. Divar hörgüsü zamanı ocaq külü qatışıqlı əhəng məhlulundan istifadə edilmişdir. Qala yaxınlığında əhəng yoxdur. Lakin Talış dağlarının Peştəsər silsiləsində - Göydərə kəndi yaxınlığında əhəngli dağın olduğu və ətrafda yaşayan

---

s. 18.

əhalinin bu əhəngdən istifadə etməsi məlumdur. Peştəsər Talış dağlarının üç böyük silsiləsindən biridir.

**"Peştasar silsiləsi Talış silsiləsinə paralel uzanmaqla monoklinal quruluşa malikdir. Peştasar dağ silsiləsi şimal-qərbdə Quludaş zirvəsindən başlayaraq, cənub-şərqdə Təbilbənd dağına qədər uzanır."**[77]

Ehtimal ki, qala divarlarının hörülməsində istifadə edilmiş əhəng həmin ərazidən gətirilmişdir.

Bəlləbur qalasında arxeoloji tədqiqatların aparılmamasına baxmayaraq qalanın yerüstü ərazisindən şirli saxsı qabların, mis və qızıl Bizans sikkələrinin tapılması qalanın həqiqətən də ilkin orta əsrlərdən başlayaraq mühüm strateji obyekt olmasını söyləməyə imkan verir.

Təbii ki, bu faktlar içərisində ən mühümü tapılmış mis və qızıl Bizans sikkələridir. "Lənkəran" kitabında bu sikkələrin Talış torpaqlarına gəlib çıxması belə izah olunur:

**"Qalada tapılmış yerüstü materiallar, Bizans mis və qızıl numizmatika nümunələrinin aşkar edilməsi Bəlləburun IX-XI əsrlərdə Bizansla ticarət əlaqələrini göstərir."**[78]

Bu sikkələr Bizans imperatorlarının Abbasi Xilafətinə qarşı mübarizədə Xürrəmilərə etdiyi pul yardımları da ola bilərdi. Akademik Ziya Bünyadov Xürrəmi – Bizans əlaqələrindən bəhs edərkən yazır:

---

[77] A.Ə.Əliyev , H.K.Həsənov. Talışın landşaftı, B. , 1972, s. 9.
[78] B. Hüseynbalaoğlu, M. Talışlı. "Lənkəran", B., 1990, s. 21.





**"Biz Xürrəmilərlə Bizans imperatoru Feofil arasındakı əlaqələri nəzərdən keçirmişik. Qeyd etdiyimiz kimi bu əlaqələrin möhkəm zəmini var idi və illərdən bəri davam edirdi."**[79]

Bəlləbur qalası haqqında yerli əhalinin söylədiyi fikirlərə istinad edərək söyləmək olar ki, bura Xürrəmilərin əsas istinadgahı olmuşdur. Bu fikri təsdiqləmək üçün Bəlləbur qalasının Ərdəbilə, Babəkin anadan olduğu Bilalabad – Biləbanda və yaxud Biyəband kəndinə daha yaxın olması; Bəlləbur qalasının ətraf yerlərdəki Bərcan-Bəərzənd (Yardımlı rayonu), Buzeyir (Lerik rayonu), Şindan (Astara rayonu) qalalarına nisbətən aşağıda yerləşməsi; ehtimal ki, Babək qalası kimi ərəblər tərəfindən yandırılarkən Bərzənddən – indiki Bərcandan görünə bilməsi; yerli əhalinin qalaya çox vaxt Bardzəğələ (Hündür qala) deməsi; "Azərbaycan tarixi" 3 cildliyin I cildinin 1958-ci il nəşrində Bəzz qalasının Badz formasında göstərilməsi; ərəb mənbələrində Babəkin Bardz-Badz-Bəzz qalasının eyni adlı Vardzın sahilində olması və s. Fikirlərin söylənməsi kifayətdir.

Bunlardan savayı bu qala haqqında X əsrdən sonra mənbələrdə heç bir məlumatın olmaması da Bəlləburun Abbasilər tərəfindən kafir və zındıq kimi lənətlənən Xürrəmilərə məxsusluğunu söyləməyə imkan verir.

---

[79] Z. Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, B., 1989, s. 243.

Bəzzin yandırılmasından və dağıdılmasından danışan Z.Yampolski Babəkilərin məğlubiyyətindən sonra Bəzzi belə təsvir edir:

**«Три дня оргия разрушения и пожара царила под небом База»**[80]

Yuxarıdakı fikirlərə aydınlıq gətirib tarixi keçmişimizi öyrənməkdən ötrü ən azı Babəkin qalalarından biri sayılan, indi həmin ərazidəki kəndin adı ilə adlanan Bəlləbur qalası ərazisində tədqiqat işlərinin aparılması vacibdir. İnanırıq ki, qalada tədqiqat aparılarsa tezliklə Azərbaycan tarixi üçün bir çox yeni faktlar üzə çıxacaqdır ki, bunlar Azərbaycan tarix elmində hələ məlum deyildir.

[80] З.И.Ямполский . Восстание Бабека, Б. , 1941, с. 31.





# İstifadə edilmiş ədəbiyyat siyahısı

## Azərbaycan dilində olan ədəbiyyat:


1. “Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat-2002”.
2. “Azərbaycan tarixi” 7 cildliyin I cildi, Bakı, 1998.
3. “Azərbaycan tarixi” 7 cildliyin II cildi, Bakı, 1998
4. “Azərbaycan tarixi xəritələri” Bakı, 1994.
5. “Azərbaycan tarixi üzrə qaynaqlar”, Bakı, 1989.
6. A.Ə.Əliyev , H.K.Həsənov “Talışın landşaftı”, Bakı, 1972.
7. www.azwikipedia.org
8. Böyükağa Hüseynbalaoğlu, Mirhaşım Talışlı “Lənkəran”, Bakı, 1990.
9. Əbdülhüseyn Zərrinkub, “2 qərn sükut” .
10. Əli Əbdoli “Kadusların tarixi” Tehran-Bakı, 2002.
11. Heydər Əliyev “Müstəqilliyimiz əbədidir.” (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.) Bakı 1998.
12. Həşim Kəlbiyev “Bəlləbür Bəzzdir”, “Ekologiya, fəlsəfə, mədəniyyət” elmi məqalələr məcmuəsi, 20-ci buraxılış, Bakı, 1999.
13. Hüseynqulu Məmmədli “Qafqazda İslam və Şeyxülislamlar” Bakı 2005.
14. Qəmərşah Cavadov “Talışlar” Bakı, 2004.

15. Qiyasəddin Qeybullayev "Azərbaycan türklərinin təşəkkülü tarixindən" Bakı, 1984.
16. "Qurani-Kərim" (Muhəmməd Cavad Ələvi Təbatəbainin Azərbaycan dilinə tərcüməsi ilə), 2001.
17. Mehdi Pişvayi "Məsum imamların həyatı" Tehran, 2005.
18. Musarza Mirzəyev "Mənim Masallım", Bakı, 1991.
19. Musarza Mirzəyev "Talış toponimlərinin qısa izahlı lüğəti", Bakı, 1993.
20. Nailə.Vəlixanlı "IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında", Bakı 1974.
21. Nailə Vəlixanlı "Ərəb Xilafəti və Azərbaycan", Bakı, 1993.
22. Novruz Novruzov "Masallı", Bakı, 1990.
23. Rəşid Göyüşov "Azərbaycan arxeologiyası", Bakı,1986.
24. Saleh İldırım "Babək Xürrəmdin ya Bay Bək Şaman?", 2004.
25. Seyyid Rza Nüseyninəsəb "Şübhələrə cavablar", 2004.
26. Səidəli Kazımbəy oğlu "Cəvahirnameyi-Lənkəran", Lənkəran, 1988, (Makina çapı ilə Lənkəranlı MirSaiam Babayev tərəfindən hazırlanmişdır.).
27. Səid Nəfisi "Azərbaycan qəhrəmanı Babək Xürrəmdin", Bakı, 1990.





28. Şiri Əvəz Sadıxzodə "Talış dilinin qrammatikası", Sankt-Peterburq, 2002.
29. Tofiq Mustafazadə "Ümumi tarix" II cild, Bakı, 1995.
30. Z.Bünyadov "Azərabycan VII-IX əsrlərdə" Bakı, 1989.

## Rus dilində olan ədəbiyyat:

1. «Атлас Мира» Москва, 1963 г.
2. З.И.Ямполский «Восстание Бабека», Баку, 1941.
3. И.Алийев «История Мидия» Баку, 1960.
4. И.М.Дьяконов «История Мидии от древнейших времен до конча века до н. е.» Москва - Ленинград, 1956.
5. Новрузали Мамедов «Талышско-русско-Азербайджанский словарь» Баку, 2006.
6. П.Ф.Рисс «О Талышинцахъ ихъ образъ жизни и языкъ» Записки Кафкязского отдела Императорского РГО, вып.III, 1855.
7. Рауф Меликов «Этническая картина Азербайджана в период Ахеменидского владычества. VI-IV вв. до н. е.» Баку, 2003.
8. www.lesson-history.narod.ru

**Fars dilində olan ədəbiyyat**

1. "Si ostan İran " Xəritə Tehran 2006.

**Türk dilində olan ədəbiyyat:**

1. Harun Yahya "Kabala ve Masonluk", İstanbul.
2. www.harunyahya.net





# XƏRİTƏLƏR VƏ İLLÜSTRASİYALAR

Ərəb müəllifləri Talış haqqında




*Xəritə 4. Azərbaycan Respublikasında talışların yaşadıqları əsas rayonlar. (www.azwikipedia.org saytından)*




Azərbaycan Respublikasında talışların məskunlaşdığı əsas məntəqələrin xəritəsi .

Əhalisinin əksəriyyətinin talış olduğu rayonların ərazisi

Talışların yaşadığı , lakin çoxluq təşkil etmədiyi rayonların ərazisi

*Xəritə 6.*








*Xəritə 11. Azərbaycan Respublikası Astara rayonu və Şindan qalasının mövqeyi*




*Xəritə 13. Abbasi Xilafəti VII - IX əsrlər.*
*(Mənbə: www.spsl.nsc.ru history gumilyev saytı)*








***Xəritə 15. Müəllif Həşim Kəlbiyev.(Nailə Vəlixanlının "Xürrəmilər hərəkatı" xəritəsi əsasında)***




*Xəritə 16. Ziya Bünyadovun "Azərbaycan VII – IX əsrlərdə" kitabındakı xəritə əsasında.*





## Şiə imamlarının nəsli şəcərəsi

1.Əli(ə)----------------Fatimə(ə)

2. Imam Həsən (ə) — Mərakeş İdrisiləri

3.İmam Hüseyn (ə)

4. Əli Zeyn əl Abidin (ə) — Zeyd — Zeydilik

5. Məhəmməd əl Baqir (ə)

6. Cəfər əs Sadiq (ə) — İsmayıl — İsmayililik, Fatimilik

7. Musa əl Kazım (ə)

8. Əli ər Rza (ə)

9. Məhəmməd əl Cavad (ə)

10. Əli əl Hadi (ə)

11. Həsən əl Əsgəri (ə)

12. Məhəmməd əl Mehdi (ə)
(Miladi 874-cü ildə Samirədə qeybə çəkilib.)

Qeydlər:

1. Qarşısında rəqəmlə işarə olunmuş adlar şiəlikdə qəbul olunmuş 12 imamın adıdır.
2. Rəqəmlə işarə olunmamış adlar isə şiəliyin qolları olan İdrisilik, Zeydilik, İsmailili̇k və Fatimilyin başlanğıcını göstərir.

*Müəllif: Elnur Kəlbizadə*



*Bəlləbur ətrafı dağların görünüşü Şəkil 1998-ci ildə çəkilib.*



***Lənkəran Dövlət Universitetinin tələbələri Həşim Kəlbiyevin rəhbərliyi altında Lerik r-nu Biləband kəndində olarkən. Şəkildə yuxarı sırada sağdan birinci müəllif Həşim Kəlbiyev, soldan birinci müəlif Elnur Kəlbizadə, sağdan ikinci kənd müəllimi Əliheydər Əliyev.***







Azərbaycan Respublikası Talış Regionunda tapılmış şirli qab nümunələri. Masallı rayonu Hişqədərə muzeyi.



*Müəllif Həşim Kəlbiyev İran İslam Respublikası Gilan ostanında talışların sıx məskunlaşdığı ərazidə yerləşən qalalardan biri ilə tanış olarkən. Lisardakı Nadir şah qalası.*







*Müəllif Həşim Kəlbiyev İran İslam Respublikası Gilan ostanında talışların sıx məskunlaşdığı ərazidə yerləşən qalalardan biri ilə tanış olarkən.*



*Müəllif Elnur Kəlbizadə Zaqatala-Balakən regionunda yerləşən orta əsr gözətçi qalalarından biri ilə tanış olarkən.*



*Müəllif Elnur Kəlbizadə Zaqatala rayonu Çardaxlar kəndində yerləşən Şuay gözətçi qalası ilə tanış olarkən. (Şəkildə sağdan birinci Elnur Kəlbizadə)*



*Müəlliflərdən biri Elnur Kəlbizadə Zaqatala Tarix Diyarşünaslıq Muzeyində orta əsrlərə aid eksponatlarla tanış olarkən.*







*Talışlar qırmızı rəngi geyimlərində indiyədək saxlayıblar. İran İslam Respublikası Həştpər (Talış) şəhəri.*



*Müəllif Elnur Kəlbizadə "İçərişəhər" orta əsr şəhər kompleksi ilə tanış olarkən.*



Azərbaycan Respublikası Talış regionunda tapılmış silah nümunələri. Masallı rayonu Hişgədərə muzeyi.








*Xəritə 1. Qafqaz regionunun etnolinqvistik xəritəsi və xalqların yayılma arealı. (www.azwikipedia.org saytından)*




*Xəritə 2. İran İslam Respublikasının etnolinqvistik xəritəsi. (www.lib.utexas.edu/maps / saytından)*








*Xəritə 3. Talışların yaşadıqları ərazilər.*




İran İslam Respublikasında talışların sıx məskunlaşdığı əsas məntəqələrin xəritəsi .

Talışların çoxluq təşkil etdiyi ərazılər

Talışların yaşadığı lakın çoxluq təşkil etmədiyi ərazılər

***Xəritə 5.***








***Xəritə 7. Azərbaycan Respublikasının Talış regionunun fiziki-coğrafi xəritəsi. (Mənbə: Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat.2002)***




*Xəritə 8. İran İslam Respublikası Gilan ostanlığının fiziki-coğrafi xəritəsi*








*Xəritə 9. İran İslam Respublikasında talışların yaşadığı ərazilərin fiziki coğrafi xəritəsi. (www.lib.utexas.edu/maps / saytından)*




*Xəritə 10. İran İslam Respublikasında talışların ən çox yaşadığı Gilan ostanlığının xəritəsi.*








*Xəritə 12. Ərəb Xilafəti VII – IX əsrlərdə (www.lesson-history.narod.ru)*




Xəritə 14. Müəllif Nailə Vəlixanlı.







*Babək əl-Xürrəmi (Həsən ibn Abdullah)*
*Dövrümüzdə çəkilmiş şəkil.*



*Ərdəbil yaxınlığındakı Babək qalası və yaxud Bəzzlərdən biri.*



Buzeyir qalasından ətraf ərazinin görünüşü.







*İran İslam Respublikası Gilan ostanlığı. Talışların sıx yaşadığı Əsalem məntəqəsindən bir görüntü.*



*Talışlar hələ də Babəkilərin qırmızı rəngli bayrağını enməyə qoymayıblar. İran İslam Respublikası Həştpər (Talış) şəhər sakini.*



Buzeyir qalasının bir bürcü.





# MÜƏLLİFLƏR



*Həşim Adil oğlu Kəlbiyev 1957-ci il aprel ayının 18-də Lənkəran rayonunun Şilavar kəndində anadan olmuşdur. 1968-ci ildə Şilavar kənd ibtidai məktəbini, 1974-cü ildə Lənkəran şəhər 5 saylı orta məktəbini bitirmiş, 1975-77-ci illərdə Dövlət Daxili Qoşunlarında xidmət etmişdir. 1983-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsini bitirmişdir. Lənkəran şəhər məktəblərində müəllim və direktor müavini işləmişdir. 1992-ci ildən Lənkəran Dövlət Universitetində işləyir. Həşim Kəlbiyev LDU-nun baş müəllimdir. Dissertasiya mövzusu "Lənkəran bölgəsinin maddi mədəniyyəti"dir. Dövrü mətbuatda, elmi jurnallarda "Lənkəran bölgəsində məskənsalma", "Lənkəranın ənənəvi evləri", "Lənkəran bölgəsində ilk insan izi", "Bəlləbur Bəzzdir", "Lənkəran-Astara bölgəsinin ənənəvi düyü yeməkləri", "Lənkəran bölgəsində qədim dini ayinlərin qalıqlarına dair", "Talışların ailə məişətinin bəzi xüsusiyyətlərinə dair", "Talışların həsirçilik sənəti və əhalinin məişətində onun yeri" və s. məqalələri, "Şilavar (Şilvo) haqqında tarixi etnoqrafik oçerklər", "Talışların maddi və mənəvi mədəniyyət dəyərləri", "Sənətkar ömrü" adlı üç monoqrafiyanın müəllifidir. "Ərəb müəllifləri Talış haqqında" adlı kitab müəllifin çap olunan dördüncü kitabıdır.*



*Elnur Həşim oğlu Kəlbizadə 1988-ci il avqust ayının 15-də Lənkəran rayonunun Şilavar kəndində anadan olub. 1994-cü ildə Şilavar kənd orta məktəbinin birinci sinifinə daxil olmuş, 1998-ci ildən isə təhsilini Lənkəran şəhər 10 saylı orta məktəbində davam etdirmiş və 2005-ci ildə həmin məktəbi bitirmişdir. Müəllif həmçinin 1999-2004-cü illərdə Cəfər Cabbarlı adına Lənkəran şəhər 1 saylı musiqi məktəbinin tar sinfində təhsil almışdır. Məktəb yaşlarından ədəbi yaradıcılıqla məşğul olan müəllif "Ziya" ədəbi məclisinin üzvüdür. Şerləri və müxtəlif mövzularda məqalələri dövrü mətbuatda ("Ulduz", "Şəfəq", "Məşəl" jurnalları, "Toloşi sədo"("Talışın səsi"), "Lənkəran", "Aşkarlıq", "Cənub xəbərləri" qəzetlərində), həmçinin müəllifə məxsus www.caspianman.azerooblog .com və www.elnurkelbizadeh.azeriblog.com bloq saytlarında işıq üzü görmüşdür.*

*2005-ci ildə Lənkəran Dövlət Universitetinin "Tarix və ictimaiyyət" ixtisasına daxil olmuş,. III kurs tələbəsidir.*

*2005-2006-cı illərdə Lənkəran Televiziyasının "Xəbərlər" informasiya proqramının aparıcısı olmuşdur. Təhsildə uğurlarına görə müxtəlif fəxri fərmanlara, həmçinin "Dövlət Proqramlarının monitorinqində medianın rolu" və "QHT-lərin Maaliyyə davamlılığı və strategiyaları" mövzularında keçirilən seminarlarda sertifkatlara layiq görülmüşdür.*

*"Ərəb müəllifləri Talış haqqında" adlı əsər müəllifin çap olunan ilk kitabıdır. Əsərin birinci və ikinci bölmələri Elnur Kəlbizadə, üçüncü və dördüncü bölmələri Həşim Kəlbiyev tərəfindən qələmə alınmışdır.*





## *QEYDLƏR ÜÇÜN*

KİTAB HAQQINDA İRAD, RƏY VƏ DƏYƏRLİ TƏKLİFLƏRİNİZİ AŞAĞIDAKI ELEKTRON POÇT (e-mail) ÜNVANLARINA GÖNDƏRƏ BİLƏRSİNİZ:

caspianman@mail.ru
kadusimerd@mail.ru





# Mündəricat

*Haşım və Elnur Kəlbiyevlərin "Ərəb müəllifləri Talış haqqında" adlı monoqrafiyasına rəy* ........ 3

*Giriş* ........ 4

*I bölmə. IX əsr müəlliflərinin Talış haqqındakı qeydlərinin təhlili* ........ 10

*II bölmə. X əsr ərəb müəllifləri Talış haqqında* ........ 34

*III bölmə. Talış sözünün mənşəyi, yaranması və mənası haqqında* ........ 50

*IV bölmə. Bəlləbur Bəzzdir* ........ 62

*Xəritələr və illüstrasiyalar* ........ 72

*İstifadə edilmiş ədəbiyyat siyahısı* ........ 100

*Müəlliflər* ........ 104

*Qeydlər üçün* ........ 106

*Mündəricat* ........ 108

*Elmi redaktorlar:* *Qəzənfər Rəcəbli*
*Tarix elmləri namizədi, dosent*

*Əliağa Baxşıyev*
*Tarix elmləri namizədi, dosent*

*Rəyçilər:* *Emil Kərimov*
*Tarix elmləri namizədi*

*Qəzənfər Rəcəbli*
*Tarix elmləri namizədi, dosent*

*Rakif İbadov*
*Tarix elmləri namizədi*

**Müəlliflər:** **Həşim Kəlbiyev**
**Elnur Kəlbizadə**

**Ərəb müəllifləri Talış haqqında**
(Azərbaycan dilində)
Bakı-2007, 108 səh

**Kompyuterdə yığan və dizayn:**
Xəyalə Kəlbiyeva

Yığılmağa verilmiş: 15/10/2007
Çapa hazırlanmış: 15/11/2007
Formatı: 60x84 1/16
Tiraj: 500 ədəd, həcmi: 6,75 çap vərəqi
Qiyməti müqavilə ilə

MBM" mətbəəsində çap olunmuşdur.